RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 64 (8380) ÇƏRŞƏNBƏ, 8 aprel 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



◆ "Biz birlikdə güclüyük!"



# İLHAM ƏLİYEVDƏN xalqa növbəti çağırış

## Prezident Azərbaycanın bu çətin sınaqdan da az itki və şərəflə çıxacağını bəyan etdi

**Bəşəriyyəti vahiməyə salan koronavirus pandemiyası dünya dövlətlərinə hərtərəfli zərər vurmaqda davam edir. Qlobal problemin fəsadları dünya ölkələrində həm də iqtisadi və maliyyə böhranı yaradır. Ancaq bəzi dövlətlər qabaqlayıcı tədbirlər görməklə bu qlobal böhrandan az itkilərlə çıxmağa çalışırlar. Belə ölkələrdən biri də Azərbaycandır. Ümumdünya Səhiyyə Təşkilatının, BMT-nin yaydığı məlumatlara əsaslanaraq deyə bilərik ki, Azərbaycanın bir çox böyük dövlətlərdən fərqli olaraq pandemiyaya qarşı mübarizəsi effektiv nəticələr verir.**

### 600 min işçinin əməkhaqlarının əhəmiyyətli hissəsini dövlət öz üzərinə götürdü

Öncə dövlətin mühüm izolyasiya tədbirlərini həyata keçirməsi, ölkədə ciddi karantin rejiminin tətbiqi və bu durumun fəaliyyətinə mənfi təsir göstərdiyi hüquqi və fiziki şəxslərin maddi vəziyyətinin yaxşılaşdırılması ilə bağlı dövlət dəstəyi proqramlarının hazırlanması, aprelin 6-da isə Sumqayıt Kimya Sənaye Parkında "Bakı Tekstil Fabriki" MMC tərəfindən tibbi maska istehsalı müəssisəsinin açılışı deyilənləri bir daha təsdiqləyir.

Belə ki, pandemiyanın ölkə iqtisadiyyatına, makroiqtisadi sabitliyə, məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılmasını nəzərdə tutan Prezident İlham Əliyevin yeni iqtisadi-sosial paketi ilə hökumət zərər çəkən sahələrdə çalışan insanların problemlərinə diqqət yetirdi. Azərbaycanda iqtisadi sabitliyin təmin edilməsinə, məşğulluqla bağlı problemlərin həllinə, makroiqtisadi və maliyyə sabitliyinin qorunmasına ən azı 2,5 milyard manat ayrıldı.

Azərbaycanda 600 min işçinin, o cümlədən də fərdi sahibkarların dövlət hesabına maliyyələşdirilməsi qərara alındı. Yəni onların əməkhaqlarının əhəmiyyətli hissəsini dövlət öz üzərinə götürdü. Dövlət başçısı vurğuladı ki, bu genişmiqyaslı iqtisadi və sosial paket həm iqtisadi sahədə artan dinamikaya müsbət təsir göstərəcək, həm də həssas təbəqəyə aid olan vətəndaşları bu böhrandan qoruyacaq.

### İşsiz kimi qeydiyyata alınan 200 min nəfərə 2 ay ərzində 190 manat veriləcək

Bu dəstək proqramlarına əsasən sahibkarlıq subyektləri üçün əmlak və torpaq vergisindən müddətli azadolmaların verilməsi, mənfəət (gəlir) vergisi və sadələşdirilmiş vergi üzrə müddətli güzəştlərin verilməsi, sosial sığorta yükünün azaldılması, əhalinin ərzaq və tibbi ehtiyacları üçün zəruri olan bəzi məhsul növlərinin idxalının ƏDV-dən müddətli azad edilməsi və s. daxildir.

Pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarların 2020-ci il 10 mart tarixinə 1 milyard manat həcmində mövcud kreditlərinin faiz dərəcəsinin bir il üzrə 10 faizi subsidiyalaşdırılacaq. Güzəştli ipoteka kreditləri üçün ayrılan vəsaitlərin həcmi 90 milyon manat artırılacaq.

Həmçinin 50 min haqqı ödənilən ictimai iş yerinin yaradılması vasitəsilə işsiz şəxslərin müvəqqəti məşğulluğu təmin ediləcək və işsiz kimi qeydiyyata alınan 200 min nəfərə iki ay ərzində 190 manat birdəfəlik ödəmə veriləcək.

Ardı 3-cü səh.

## Baş redaktordan

# Dövlət nə lazımdırsa, edir!

## Bəs vətəndaş?

**Bizim siyasətimiz birmənalıdır, bizim iradəmiz qətidir. Biz hər zaman olduğu kimi, Azərbaycan xalqının problemlərini həll edirik və həll edəcəyik. İndiki vəziyyətdə, koronavirus dövründə Azərbaycan dövlətinin addımları bir daha onu göstərir ki, bizim üçün Azərbaycan xalqının sağlamlığı, təhlükəsizliyi, rifahı hər şeydən üstündür və buna nail olmaq üçün biz istənilən addıma gedəcəyik. Heç kimin bu məsələ ilə bağlı şübhəsi olmasın.**

**İlham ƏLİYEV**

Heç kəsin gözləmədiyi və indiyədək görmədiyimiz hadisə baş verdi!

Qəflətən insanları kütləvi surətdə yoluxduran, hətta bəzən həyatdan məhrum edən qəribə virus peyda oldu!

Çinin Uhan şəhərində meydana gələn, 31 dekabr 2019-cu ildə Çin hökuməti tərəfindən Ümumdünya Səhiyyə Təşkilatına barəsində məlumat verilən koronavirus adlı bu bəlaya 11 fevral 2020-ci ildə COVID-19 adı verildi.

Adının nə olmasının elə də bir əhəmiyyəti olmayan bu xəstəlik çox qısa zamanda dünyanı cənginə alaraq pandemiyaya çevrildi!

Buna qədər insanların kütləvi şəkildə ölümünə səbəb olan vəba, taun, xolera, nə bilim "İspan qripi", "quş qripi", "donuz qripi" və s. barədə eşitmiş, bədii əsərlərdə oxumuş, filmlərdə baxmışdıq.

Amma həyatda rast gələcəyimizə, dünyanı silkələyən - iqtisadiyyatı tormozlayan, nefti ucuzlaşdıran, sərhədləri bağlayan, adamları evdə oturmağa məcbur edən, kütləvi tədbirləri təhlükə mənbəyinə çevirən belə bir qorxu ilə real həyatda rastlaşacağımızı heç zaman güman etməzdik!

Sanki yuxu görürük!

Amma bu yuxu deyil, gerçəklikdir!

Həm də onunla hesablaşmağa məcbur edən gerçəklik!

Nə yaxşı ki, Azərbaycan dövləti özünü itirmədi!

**Nə yaxşı ki, Prezident İlham Əliyev həmişəki kimi hadisələri qabaqlamağı, vədəsində ən düzgün qərar qəbul etməyi, ölkənin bütün resurslarını səfərbərliyə alaraq əlaqədar qurumları ayağa qaldırmağı bacardı!**

**Zamanında ən düzgün, gərəkli, uzaqgörən addımlar ataraq qərarlar qəbul etdi!**

*Yanvarın 24-də Nazirlər Kabineti yanında sutkanın 24 saatı ərzində fəaliyyət göstərən Operativ Qərargah yaratdı!*

*İlham Əliyevin bu müdrikliyi və uzaqgörənliyi koronavirusun Azərbaycanda böyük fəsadlar törətməsinin qarşısına ciddi sədd çəkdi!*

Amma bütün bunlar hələ son deyil!

Təəssüf ki, yalnız başlanğıcdır!

Bu gün qoca Avropanı çıxılmaz duruma salan koronavirus sabah dünya üçün daha hansı problemlər yaradacaq - dəqiq demək çətindir!

Bilinən odur ki, mübarizə hələ təzə başlayır!

Hələ bu bəlanın cilovlanması çox zaman aparacaqdır.

Hələ onun çarəsinin, dərmanının tapılmasına çox aylar sərf olunacaqdır!

Bütün insanlar, bütün dövlətlər, dünya ona qarşı mübarizədə birləşməsə, koronavirusdan asanlıqla yaxa qurtarmaq mümkün olmayacaq!

### Gözlənilməyən təhlükə

Bəli, indiyədək eşidib, görmədiyimiz real təhlükə artıq yanımızda, gündəlik həyatımızdadır!

Qısa müddətdə mənfur virus yaşayış tərzimizi dəyişərək mətbuatın gündəminə çevrildi, qurduğumuz, sabaha ünvanlanan çoxsaylı planlarımızı alt-üst etdi!

Qorxub geri çəkilsək, yersiz təşvişə və panikaya düşəcək, yaxud səhlənkarlıq etsək, koronavirus adlı qəddar düşmənə məğlub olarıq, yaxınlarımızı, doğmalarımızı, dostlarımızı itirə bilərik...

**Hamımız bu qəfil bəlaya qarşı mübarizənin önündə gedən Prezidentimizin ətrafında, dövlətimizin yanında olmalıyıq!**

**Çünki Prezidentimiz də, dövlətimiz də ilk günlərdən bizim yanımızdadır!**

**Vəziyyətdən necə çıxmağın ən düzgün yolunu göstərərək real köməklər edirlər!**

**Dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə görün Azərbaycan dövləti qısa zamanda nə qədər iş görüb, zəruri, təsirli addımlar atıb!**

EDİLƏNLƏRİ QISA ŞƏKİLDƏ XATIRLADAQ:

- Dövlət başçısı ilk gündən xalqla açıq danışdı, məsələnin ciddiliyini, öldürücü virusun cilovlanmayacağı təqdirdə necə böyük fəlakətə səbəb ola biləcəyini xatırlatdı;
- Xalqı, bütün dövlət strukturlarını və qurumları səfərbər etdi, insanları təlaşa, ajiotaja düşməkdən çəkindirdi, ardıcıllıqla görüləsi işləri müəyyənləşdirdi;
- Ümumdünya Səhiyyə Təşkilatı ilə əlaqə quruldu, onun nümayəndələri ölkəyə dəvət edildi, tövsiyələri, məsləhətləri nəzərə alındı;
- Sərhədlər bağlandı, təyyarə reysləri təxirə salındı, sərhəd bölgəsində FHN-nin səyyar hospitalı yaradılaraq ölkəyə gələnlərin karantinə alınması təmin edildi;
- Xarici səfərlər ləğv olundu, elektron viza verilişi dayandırıldı;
- Səhiyyə xidmətinin təşkili, lazımi laboratoriya, dərman və testlərin, aparat və avadanlıqların alınıb gətirilməsi üçün dövlət büdcəsindən əvvəlcə 10 mln, sonra 20 mln manat vəsait ayrıldı;
- Hazırda 10 xəstəxana xüsusi rejimlə işləyir, dörd ən müasir laboratoriya gətirilərək fəaliyyətə başlayıb;
- Məktəblər, uşaq bağçaları bağlanıb, idman yarışları, kütləvi tədbirlər dayandırılıb, insanların cəm olduğu digər mərasimlərin (toy və yas) keçirilməsi barədə tövsiyə verilərək zəruri qadağalar qoyulub;

Ardı 2-ci səh.

## Koronavirus pandemiyası ilə mübarizənin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, koronavirus pandemiyasına qarşı mübarizə sahəsində ölkədə həyata keçirilən səhiyyə tədbirləri çərçivəsində tibb müəssisələrinə və tibbi avadanlığa artan tələbatın qarşılanması və infeksiyaya yoluxmuş xəstələrin müalicəsinin səmərəli təşkili məqsədilə **qərara alıram:**

1. Hər birində 200 çarpayı olan modul tipli 6 (altı) xəstəxananın quraşdırılması məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.66-cı bəndində göstərilmiş məbləğin 14,8 milyon (on dörd milyon səkkiz yüz min) manatı Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 aprel 2020-ci il*




## İlham ƏLİYEV: «Bu istehsalat sahəsi xüsusi əhəmiyyət daşıyır»

### Yeni müəssisə özümüzü tibbi maskalarla təmin etməyə və idxaldan asılı olmamağa imkan verəcək

**COVID-19-un qarşısının alınması üçün Azərbaycanda həyata keçirilən çoxşaxəli tədbirlər Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir. Dövlət başçısı həmişə olduğu kimi, bu çətin günlərdə də əhalinin sağlamlığının təmin olunması məsələsinə xüsusi qayğı ilə yanaşır. Prezidentin tapşırığına əsasən, aidiyyəti dövlət qurumlarının qısa müddətdə tibbi maska istehsalı avadanlığının və xammalın Azərbaycana gətirilməsinə nail olması buna aydın misaldır.**

Ardı 5-ci səh.

Bağışlamaq qəlbin böyüklüyüdür

## İlham Əliyev 176 nəfərə azadlıq bəxş etdi

### Prezidentin əfv sərəncamı göstərdi ki, həssas yaş qrupunda olan məhbusların da sağlamlığı diqqət mərkəzindədir

**İnsan hüquq və azadlıqlarının etibarlı müdafiəsinin təmin olunduğu respublikamızda humanizm dəyərlərinə də daim önəm verilib. Məhz Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra demokratikləşmə ilə yanaşı, cəmiyyətimizin xoş ovqatına xidmət edən humanizm ənənələrinin təməli qoyulub.**

### Humanizm dəyərlərinə ehtiram

Məhz Ulu Öndərin humanistliyinin nəticəsi olaraq Azərbaycanda məhkum olunmuş şəxslərin əfv edilməsi, bağışlanması ənənəyə çevrilib. Mərhəmət və insanpərvərlik kimi ən ali insani keyfiyyətləri ilə seçilən Ulu Öndərin humanizm ideyalarına böyük önəm verməsi və real həyatda bunu təcəssüm etdirən addımlar atması həm də ölkədə vətəndaş həmrəyliyinə xidmət edib. Heydər Əliyev humanizm prinsiplərinə uyğun olaraq əfvetmə və bağışlama institutunu yaradıb, onun təşəbbüsləri ilə bu sahədə bir sıra tədbirlər həyata keçirilib.

Ardı 2-ci səh.



## Koronavirusla mübarizə strategiyasında Azərbaycan modeli

### Dünyanı bürüyən pandemiya ölkəmizdə ciddi nəzarət altındadır

**Çinin Uhan əyalətindən alovlanıb dünyanı bürüyən koronavirus, COVID-19 bəlası hələ də sovuşmayıb və bəşəriyyəti təhdid etməkdə davam edir. Ən güclü dövlətlərin belə iqtisadiyyatını, səhiyyəsini alt-üst edib, insan ölümlərini çarəsizcə izləməyə vadar edir...**

Ardı 5-ci səh.

Bağışlamaq qəlbin böyüklüyüdür

# Əfv sərəncamı ölkə Prezidentinin növbəti humanist addımıdır



Ölkə Prezidenti cənab İlham Əliyev Azərbaycan Konstitusiyasının 109-cu maddəsinin 22-ci bəndini rəhbər tutaraq məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında sərəncam imzalayıb. Bu, dövlət başçısının növbəti humanist addımıdır. Cəmiyyət həmişəki kimi Prezidentin bu qərarını müsbət qiymətləndirib. Ancaq müxalifətin marginallaşan hissəsi yenə də öz ampluasındadır. Bir neçə gün əvvələ deyirdilər ki, niyə əfv verilmir. Əfv sərəncamı verilir, indi isə bu fikrin tərsini deyirlər. Görünür, bu bəd niyyətli insanlar Prezidentin sərəncamını sonadək oxumayıblar. Həmin sənədin giriş hissəsini radikal müxalifətin diqqətinə çatdırmaq istəyirəm. Sərəncam dünyada koronavirus infeksiyasının yayılması ilə əlaqədar yaşına və səhhətinə görə xüsusi qayğıya ehtiyac duyan yaşı 65-dən yuxarı olan məhkumların və onların ailə üzvlərinin Azərbaycan Respublikası Prezidentinə ünvanlanmış əfv haqqında müraciətlərinə baxaraq məhkumların sağlamlıq vəziyyətini, cəza çəkdikləri müddətdə davranışlarını nəzərə alaraq və humanizm prinsiplərinə əsaslanaraq imzalanıb.

Bu sərəncamdan bir neçə gün əvvəl 200 məhbus da azadlığa buraxılmışdı. Bundan başqa, adına "siyasi məhbus" dedikləri şəxs azad olunaraq Avropa ölkələrindən birinə köçdü. İndi isə yaşı 65-dən yuxarı olan 176 məhkum əfv edildi. Sözdə liberal dəyərlərdən dəm vuran kəsim əslində əfvə qarşı çıxmaqla elan etdikləri dəyərlərin əleyhinə gedir. Koronavirusa görə əfv fərmanları bir neçə, o cümlədən radikal müxalifətin sitayiş etdiyi ölkələrdə də verilib. Qəribə məntiqdir. Radikal müxalifət həmin ölkələrdə əfv fərmanları veriləndə alqışlayır, onları nümunə göstərir, elə ki, oxşar sənəd Azərbaycanda qəbul olunanda buna qarşı etiraz edir. Yəni Prezidentin hansı qərar verməsindən asılı olmayaraq, ona qarşı kəskin müxalifdirlər. Əlbəttə, radikal müxalifətdən tərif gözləmirik, ancaq marginallar ağa qara deməklə ancaq ətrafındakı məhdud qrupu aldada bilərlər. Cəmiyyət isə növbəti əfv sərəncamını alqışlayır.

Əfv olunanların arasında azadlıqdan ömürlük məhrum olunmuş iki nəfər var. Onlardan biri 20, biri isə 25 il cəza çəkib. Radikal müxalifətin sosial şəbəkələrdəki "liderləri" və onların trolları bunu dəyərləndirmək əvəzinə diqqəti ağır cinayət törədən və əfv olunan bir neçə şəxs ətrafında fokuslaşdırıblar. Radikal müxalifət yeni mövzu axtarışında məntiqsiz "niyə onlar əfv olundu, bizimkilər əfv olunmadı" sualı ilə sosial şəbəkələrdə gündəmi məşğul etmək istəyirlər. Daha anlamırlar ki, əfv sərəncamı radikal müxalifətin təbirincə desək, "onlarla" "bunlar" arasında fərq qoymur. Ona qalsa, əfv olunanlar arasında Nardaran hadisələrinə görə həbs olunan 2 nəfər də var, hansıları ki, radikal müxalifət onları dəstəkləyirdi. Göründüyü kimi, dövlət kimsədən qisas almır.

Əfv olunanlar cəzasının bir hissəsini çəkmiş, ciddi xəstəliyi olan və virusa yoluxma baxımından həssas qrupa - 65 yaşından yuxarılara şamil edilib. Ancaq marginallar əfv olunmalı şəxslər arasında elə ad çəkirlər ki, heç həmin şəxsin hələ məhkəməsi olmayıb. Hansı hüququ dövlətdə məhkəməsi olmayan şəxsi əfv edirlər?

Prezidentin və Birinci vitse-prezidentin təşəbbüsü ilə dəfələrlə əfv sərəncamları verilmiş, amnistiya aktları qəbul olunmuşdur. Bəzən il ərzində bir neçə dəfə əfv sərəncamları olur. Ötən illər ərzində minlərlə məhbus azadlığa çıxıb. Dövlət başçısı azadlıqdan məhrum edilən və cəzasının böyük hissəsini çəkmiş insanları azadlığa buraxmaqla onlara ailələrinə qovuşmaq və etdikləri səhvdən nəticə çıxarmaq üçün şans verir. Koronavirusun yayıldığı indiki məqamda bu şans həm də həssas qrupa daxil olan insanlara münasibətdə humanist bir addımdır.

***Adil ƏLİYEV,***
***Milli Məclisin Sədr müavini***

# Dövlət nə lazımdırsa, edir!

## Bəs vətəndaş?

*Əvvəli 1-ci səh.*

- 14 mart 2020-ci ildə Nazirlər Kabinetinin Operativ Qərargahı tərəfindən qəbul edilən həmin qaydaların hamı tərəfindən sözsüz yerinə yetirilməsini təmin etmək üçün Milli Məclisdə müvafiq qanunlara zəruri dəyişikliklər edildi;
- Televiziya kanalları, çap və elektron media səfərbərliyə alınaraq insanların maarifləndirilməsinə, panika və ajiotajın qarşısının alınmasına, qəbul edilən qərarların və tövsiyələrin icrasının təbliğinə yönləndirildi;
- İş yerlərində xüsusi rejimin tətbiqinə, dezinfeksiya işlərinə, virusa yoluxanların vaxtında aşkara çıxarılması üçün zəruri addımların atılmasına start verildi;
- Yaşlı insanların qorunması üçün xüsusi tədbirlər müəyyənləşdirildi;
- Xaricdə qalan vətəndaşların və təhsil alan azərbaycanlı tələbələrin vətənə qaytarılması üçün çarter reysləri təşkil olundu, yoluxma zonalarından gələnlərin karantində saxlanılması üçün xəstəxanalar müəyyənləşdirildi, zəruri vəsaitlərlə təchiz edildi;
- Karantində olanlara və xəstələrə qulluq edən həkim və tibb işçilərinin əməkhaqları 3-5 dəfə artırıldı;
- Bakıya, Sumqayıt şəhərinə və Abşerona bölgələrdən insan axınının qarşısını almaq üçün məhdudiyyət tətbiq edildi;
- Epidemiya ilə bağlı insanların, sahibkarların ziyan çəkməmələri üçün dövlət bir sıra maliyyə məsələlərini öz üzərinə götürdü;
- Bu məqsədlə cənab İlham Əliyev dövlət büdcəsindən 1 milyard manat vəsait ayırdı.

**Dövlətin gördüyü tədbirlər situasiyadan asılı olaraq ardıcıllıqla davam edir, hər gün bu sahədə neçə-neçə yeniliklərin şahidi oluruq!**

**Bəli, dövlət daim öz vətəndaşının yanındadır, onu qorumaq, təhlükəni sovuşdurmaq üçün Ümumdünya Səhiyyə Təşkilatı ilə əlbir və əlaqəli çalışır.**

### Daha nə etmək lazımdır?

**Qısa şəkildə sadaladığımız bu xatırlatmalar da göstərir ki, dövlətimiz üzərinə düşən bütün vəzifələri yüksək şəkildə icra edir!**

*Lakin uğur üçün hələ bu azdır!*

**Vətəndaş da dövlətinin yanında olmalı, onun etdiklərini qiymətləndirməli, dediyinə əməl etməlidir!**

**Yalnız belə olanda görülən tədbirlər səmərə verər!**

Təəssüf ki, hələ də bəzi insanlarda bir arxayınçılıq, laqeydlik müşahidə olunur!

Sanki koronavirusun dünyanın başına açdığı oyunlardan, indiyədək Çində, İtaliyada, İranda və İspaniyada yoluxanlardan və ölənlərdən xəbərsizdirlər!

Vaxtilə Mirzə Cəlilin, Sabirin, Üzeyir bəyin tənqid etdiyi "müsəlman ətaləti" xəstəliyi yada düşür:

**Çox ciddi bir xəstəliyə "boş şeydir", "əşi, heç nə olmaz", "havayı yerə səs-küy salıblar" psixologiyası ilə yanaşanlar da var!**

Bəzən sosial şəbəkələrdə məsələyə panika yaratmaq, sensasiya doğurmaq prizmasından yanaşılan yazıların getdiyinin şahidi oluruq!

**Əziz vətəndaşlar!**

**Bacılar və qardaşlar, atalar və analar!**

*Unutmayaq ki, biz koronavirusa yoluxmaqla bizimlə birgə yaşayan və gündəlik həyatda təmasa girən doğmalarımızı - ata, ana, bacı, qardaş, həyat yoldaşı və doğma övladları da bu xəstəliyə düçar etmiş oluruq!*

*İş yoldaşlarımızın, onların ailələrinin də xəstələnmələrinin səbəbkarına çevrilirik, hətta çalışdığımız yerdə istehsal prosesinin dayanmasına bais ola bilərik!*

*Bunlar kimisə qorxutmaq üçün deyilən sözlər yox, əsl reallıqdır!*

**Əgər sən dövlətin gördüyü işlərə dəstək verməsən, onun dediklərinə əməl etməsən, atılan addımlar heç bir fayda verməz!**

**Hər şeydən öncə, canımızda və qanımızda vətəndaş məsuliyyəti olmalıdır!**

**Koronavirus yanımızdadır, indiyədək görmədiyimiz, hələ çarəsi tapılmamış xəstəlikdir!**

Onunla zarafat etmək, ona qarşı saymazlıq fəlakətlə nəticələnə bilər!

İlk növbədə, hər birimiz özümüzü yoluxmadan qorumalıyıq!

Evdə oturmalı, əlləri tez-tez sabunla yumalı, spirtlə dezinfeksiya etməli, bir yerə toplaşmamalı, xəstəliyin əlamətlərini hiss edən kimi həkimə müraciət etməliyik!

Bununla bağlı Nazirlər Kabinetinin elan etdiyi qaydaları diqqətlə öyrənməli, yadda saxlamalı və yerinə yetirməliyik!

Həm də unutmayaq! Həmin qaydaları pozanlar qanunla ciddi cəzalandırılırlar!

*Bu, xalqın sağlamlığı ilə bağlı məsələdir, əslində həm də milli məsələdir!*

*Bir daha təkrar edirik: dövlət nə lazımdırsa, onu vaxtında və lazımi qaydada edir!*

Hətta zərurət yaranarsa, fövqəladə vəziyyət də tətbiq edəcəkdir!

**Ancaq biz vətəndaşlar məsələyə şüurlu şəkildə, yüksək məsuliyyətlə yanaşmalıyıq!**

**Bu gün birliyimizə və mütəşəkkilliyimizə, dövlətimizin yanında olaraq onun dediklərinə və qoyduğu qaydalara düzgün və məsuliyyətlə əməl etməyimizə ciddi ehtiyac var!**

**Bəxtiyar SADIQOV**

# İlham Əliyev 176 nəfərə azadlıq bəxş etdi

## Prezidentin əfv sərəncamı göstərdi ki, həssas yaş qrupunda olan məhbusların da sağlamlığı diqqət mərkəzindədir



Bu dövrdə Azərbaycanda həm də 4 dəfə amnistiya elan edilib. Milli Məclis 2007-ci il mayın 8-də "Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş amnistiya haqqında", 2009-cu il martın 17-də "Novruz bayramı münasibətilə amnistiya elan edilməsi haqqında", 2013-cü il mayın 7-də "Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 90 illik yubileyi münasibətilə amnistiya elan edilməsi haqqında" və 2016-cı il mayın 2-də 28 May - Respublika Günü münasibətilə amnistiya elan edilməsi haqqında qərarlar qəbul edib. Bütün bu amnistiya qərarlarının təşəbbüskarı isə Heydər Əliyev Fondunun prezidenti, o zaman Milli Məclisin deputatı olan Azərbaycanın Birinci-vitse prezidenti Mehriban xanım Əliyeva olub.

*Əvvəli 1-ci səh.*

Ölkə Prezidentinin yanında şəffaf və demokratik əsaslarla fəaliyyət göstərən Əfv Komissiyasında ictimaiyyətin müxtəlif təbəqələrinin təmsilçiliyinə lazımi şərait yaradılıb.

Heydər Əliyevin humanizm dəyərlərinə önəm verməsinin nəticəsi kimi Azərbaycanda ölüm hökmünün icrası dayandırılıb. Əvvəlcə bu cəzanın icrasına moratorium qoyuldu. Sonrakı illərdə bu cəzanın tamamilə ləğv olunması istiqamətində bir sıra addımlar atılıb. Bununla da Azərbaycanın adı Şərqdə ilk olaraq bu cəzanı ləğv edən ölkə kimi tarixə düşüb. Xatırladaq ki, müstəqillik illərində sonuncu ölüm cəzası AXC-Müsavat hakimiyyətinin birillik hakimiyyəti dövründə icra olunub və 8 nəfər barəsində ölüm hökmü yerinə yetirilib.

### Ulu Öndərin təməlini qoyduğu dəyərlər layiqincə yaşadılır

Ötən 17 ildə Ümummilli Liderin Azərbaycan dövlətçiliyinin qüdrətlənməsinə, ölkənin sosial-iqtisadi inkişafına xidmət edən konsepsiyalarının uğurla həyata keçirilməsinin nəticəsi olaraq respublikamız bütün sahələrdə böyük tərəqqiyə nail olmuş, dünya birliyində öz yerini möhkəmləndirmişdir. Eyni zamanda, Ulu Öndərin humanizm siyasəti ənənələrinə sadiqlik Prezident İlham Əliyevin fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edib. Heydər Əliyevin əsasını qoyduğu humanizm siyasətini layiqincə uğurla davam etdirən Prezident İlham Əliyev əfvetmə institutunun çevik və işlək mexanizm əsasında fəaliyyətini təmin edib, hər zaman mərhəmət, insanpərvərlik və humanizm məfkurəsinə söykənib. Törətdiyi cinayət əməlindən səmimi peşmançılıq keçirən, azad cəmiyyətə və normal həyata qovuşmaq istəyən məhkumların əfvlə bağlı müraciətlərini, səhhətini, ailə vəziyyətini, cəza çəkdikləri müddətdə davranışlarını nəzərə alan dövlət başçısı bayram və əlamətdar günlərdə imzaladığı əfv sərəncamları ilə onların bir qismini cəzalarının çəkilməmiş hissəsindən tam və ya qismən azad edib.

### İnsanpərvər siyasətin növbəti təcəssümü

Prezident İlham Əliyevin "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" 6 aprel 2020-ci il tarixli sərəncamı bir daha Azərbaycan dövlətinin humanist siyasət yürütdüyünü və dövlət başçısının humanizm dəyərlərinə bağlı olduğunu göstərir. Sərəncama əsasən dünyada koronavirus infeksiyasının yayılması ilə əlaqədar yaşına və səhhətinə görə xüsusi qayğıya ehtiyac duyan, yaşı 65-dən yuxarı olan məhkumların və onların ailə üzvlərinin Azərbaycan Respublikası Prezidentinə ünvanlanmış əfv haqqında müraciətlərinə baxılaraq, məhkumların sağlamlıq vəziyyəti, cəza çəkdikləri müddətdə davranışları nəzərə alınaraq və humanizm prinsiplərinə əsaslanaraq 176 məhkum, o cümlədən 165 kişi və 11 qadın cəzanın çəkilməmiş hissəsindən azad edilib.

İlham Əliyevin humanist siyasətinin göstəricisi olan növbəti əfv sərəncamı Azərbaycanda koronavirusla əlaqədar əhalinin sağlamlığının və təhlükəsizliyinin qorunması istiqamətində atılan addımlardan biridir. Bu sərəncam ondan xəbər verir ki, koronavirus infeksiyasının yayılması ilə əlaqədar olaraq hər bir vətəndaşın, o cümlədən həssas yaş qrupunda olan məhbusların da sağlamlığının təmin olunması diqqət mərkəzindədir.

Prezidentin sonuncu əfv sərəncamı bir çox ailəyə sonsuz sevinc bəxş etdi. Müxtəlif səbəblərdən azadlıqdan məhrum edilərək həbsə alınan və artıq cəzalarının müəyyən bir hissəsini çəkən, eyni zamanda, islaholunma istiqamətində müsbət nəticələri olan bir qrup məhbus azad cəmiyyətə qovuşdu. Bu, həmin insanlara İlham Əliyevin humanizm siyasətinin mahiyyətindən və məzmunundan irəli gələrək, həyatda bundan sonra layiqincə yaşamaq üçün verilmiş ən gözəl şansdır.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Yaşlılar evlərində qayğı və xidmətlərlə əhatə olunub

Yaşlı insanlara, ahıl vətəndaşlara dövlət qayğısının ildən-ilə artırılması Prezident İlham Əliyevin uğurlu sosial siyasətinin əsas istiqamətlərindən biridir. Ötən dövrdə aparılan məqsədyönlü işlər nəticəsində bu kateqoriyadan olan insanlarımız etibarlı sosial müdafiə sistemi ilə əhatə olunublar.

Mühüm sosial müdafiə istiqaməti kimi onların pensiya təminatı daim gücləndirilir. Belə ki, 2019-cu ildə dövlət başçısının təşəbbüsü və tapşırığı ilə reallaşdırılan, 4,2 milyon vətəndaşın gəlirlərinin əhəmiyyətli dərəcədə artırılmasını təmin edən inqilabi sosial islahat paketi çərçivəsində minimum pensiya 72,4 faiz, xüsusi şərtlərlə təyin olunmuş pensiyalar əməkhaqqı artımı ilə əlaqədar 31 faiz artırılıb. 2020-ci ildən isə pensiyaların əvvəlki ilin orta əməkhaqqı artımına uyğun indeksləşdirilərək 16,6 faiz artırılması təmin edilib. 2019-cu ilin pensiya artımı 750 mindən çox, 2020-ci ilin əvvəlindən pensiya artımı isə 1 milyon 200 min insanın pensiyasına şamil olunur. 2019-cu ildəki pensiya artımları illik 450 mln. manat vəsait tələb edirdisə, hazırkı artıma 560 milyon manat vəsait ayrılıb. Göründüyü kimi, son bir ildə sosial sahənin yalnız bir istiqaməti olan pensiya artımları hesabına pensiyaçılarımıza 1 milyard manatdan artıq əlavə vəsait ödənilir ki, bu da əsasən yaşlı, ahıl insanlardan olan pensiyaçılara xüsusi qayğının daha bir əyani təzahürüdür.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Pensiya yaşına çatmış şəxslər üçün sosial xidmət müəssisəsində müasir tələblərə uyğun şərait yaradılıb. Son illərdə müəssisə üçün ikinci korpus istifadəyə verilib. Heydər Əliyev Fondunun nəcib layihələri çərçivəsində həmin müəssisədəki sakinlərin qayğı ilə əhatə olunması məqsədilə ardıcıl işlər aparılır. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsünün nəticəsi olan və BMT-nin Əhali Fondunun Azərbaycan nümayəndəliyinin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə həyata keçirdiyi "Bütün yaşlar üçün cəmiyyətin qurulması: fəal yaşlanma yolu ilə Azərbaycanda yaşlıların rifahının təşviq edilməsi" layihəsi də ahıl insanların rifah halının yaxşılaşdırılması, fəal və sağlam həyat tərzi keçirmələrinin təmin edilməsi, fəal yaşlanmanın təbliği məqsədilə aparılan dövlət siyasətinə dəstək məqsədinə xidmət edir.

Son vaxtlar qlobal pandemiya elan olunmuş yeni növ koronavirus (COVID-19) infeksiyasının ölkəmizdə yayılmasının qarşısının alınması tədbirləri çərçivəsində xüsusilə bu infeksiyaya yoluxma riski yüksək olan yaşlı vətəndaşların qorunması üçün evdən çıxmamalarına qərar verilməsi də indiki şəraitdə ahıllara hörmət və qayğı nümunəsidir.

Prezident İlham Əliyev ölkədə elan edilmiş əlavə məhdudlaşdırıcı tədbirlərdən bəhs edərkən deyib: "Biz addımlarımızı yaranmış vəziyyətə uyğun atırıq. Eyni zamanda, biz vəziyyətin mənfi istiqamətdə inkişafının qarşısının alınması üçün də bu qabaqlayıcı tədbirləri görməklə özümüzü qoruyuruq. Biz dövlətimizi, xalqımızı, insanlarımızı, xüsusilə yaşlı insanları qorumalıyıq. Onların da hərəkətlərinə müəyyən məhdudiyyət qoyulubdur. Hesab edirəm ki, bu da anlaşılan məsələdir. Çünki ən riskli qrup yaşlı insanlardır. Yaşlı tənha insanların təminatını təchiz etmək üçün mənim göstərişimlə sosial işçilərin səfərbərliyi nəzərdə tutulur və onlar bu işi görəcəklər".

Dövlət başçısının göstərişinə əsasən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən bütün sosial xidmət işçiləri səfərbər edilməklə gücləndirilmiş iş rejimi şəraitində yaşı 65-dən yuxarı tənha şəxslərə evlərində gündəlik sosial xidmətlərin göstərilməsini təmin edir. Bu xidmətlərlə təmin edilənlərin sayı 9500-dən çox idi, karantin dövrü ərzində həmin sosial məişət xidmətləri yaşı 65-dən yüksək olan tənha yaşayan vətəndaşları da əhatə edir.

Tənha yaşlılar bu xidmətlərlə təmin edilmək üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 142 - Çağrı Mərkəzinə zəng edərək qeydiyyata alınırlar. Çağrı Mərkəzi üzrə əlaqə kanallarının sayı 4 dəfədən çox artırılıb. Vətəndaşların zənglərini cavablandırmaq üçün eyni anda 64 əlaqə kanalı vardısa, 200-ü də yaradılmaqla 264-ə çatdırılıb. Vətəndaş müraciətlərini cavablandıran operatorların sayı artırılıb və hazırda 60 operator zəngləri cavablandırmaqla məşğuldur. Nəticədə 142-yə zəng vuran vətəndaşların xətdə növbəliliyi və gözləmə vaxtının minimuma endirilməsi təmin olunub.

Tənha yaşlılara qayğı göstərilməsində Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin (RİİB) könüllülərinin, "DOST" və "ASAN" könüllülərinin, həmçinin Təhsil Nazirliyinin "Bir" Tələbə-Könüllü proqramının, Gənclər Fondunun nəzdindəki Gənclərin İnkişaf və Karyera Mərkəzinin və "SƏLİS" Birliyinin könüllülərinin yaxından iştirakı cəmiyyət tərəfindən də rəğbətlə qarşılanır.

Ölkəmizdə koronavirus pandemiyasına qarşı mübarizə tədbirlərinə dəstək çərçivəsində sosial məsuliyyətdən çıxış edən "Azərmaş" ASC-nin təşəbbüsü olan "Böyüklərimizi qoruyaq!" sosial aksiyası da yaşlıların evdə sosial xidmətlə təminatına mühüm dəstəkdir. Aksiya çərçivəsində müəssisə sosial xidmətçi və könüllülərin çağırılan ünvanlara daha tez, rahat getmək və kömək göstərilməsi işlərini operativ icra etmələri üçün 100 avtomobil və sürücü ayırmaqla, sosial xidmətçilər üçün ödənişsiz nəqliyyat xidmətini təşkil edib. Bu da tənha vətəndaşlara evdə sosial xidmətlərin daha operativ və səmərəli təşkilinə yönəlib. Eyni zamanda, Fövqəladə Hallar Nazirliyi, "Azərpoçt" MMC də öz dəstəyini verir.

Sosial xidmətçilər, könüllülər və sürücülər lazımi qoruyucu vasitələrlə təmin ediliblər və xidmətlər yaşlı şəxslərlə təmas olmadan, müəyyən məsafə saxlanılmaqla həyata keçirilir.

Tənha yaşayan insanlara Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən evlərində sosial xidmətlərin göstərilməsi işləri davam etdirilməklə yanaşı, ayrı-ayrı biznes qurumları da sosial məsuliyyətdən çıxış edərək tənha ahıl insanlara zəruri istehlak məhsulları ilə öz qayğılarını göstərirlər.

Buna misal olaraq "Binə Aqro" QSC, "İSR Holdinq" şirkətlər qrupu və "A-Qrup Sığorta" ASC tərəfindən bu istiqamətdə yaşlı insanlara hörmət hissi ilə, eyni zamanda, ölkəmizdə koronavirus pandemiyasına qarşı mübarizə tədbirlərinə dəstək məqsədli nəcib sosial təşəbbüslər reallaşdırılır. "Binə Aqro" şirkəti 2200, "İSR Holdinq" şirkətlər qrupu 500, "A-Qrup Sığorta" şirkəti isə 525 tənha ahılın birdəfəlik qaydada ərzaq yardımı ilə təminatını həyata keçirməkdədir. Bu sosial təşəbbüslər biznes nümayəndələri tərəfindən xüsusilə indiki şəraitdə sosial həmrəyliyə dəyərli bir töhfə və xeyriyyəçilik ənənələrinin davamlı olması yolunda atılan addımlardır.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "Bu, bir daha göstərir ki, biz, - mən bunu demişəm, bir daha demək istəyirəm, - böyük xalqıq, ən ağır dövrdə birləşə bildik. "Biz birlikdə güclüyük!" şüarı hesab edirəm ki, bu xəstəlik başa çatandan sonra da qüvvədə olacaq. Biz bu birliyi, həmrəyliyi nümayiş etdiririk".

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Bugünümüzün qəhrəmanları...



Azərbaycan dövləti koronavirusla mübarizədə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) təlimatlarını nəzərə almaqla çox ciddi tədbirlər həyata keçirir. Ölkə vətəndaşlarının qorunması, onların sağlamlıqlarının müdafiəsi əsas vəzifəyə çevrilib. Belə gərgin günlərdə tibb işçilərinin üzərinə böyük məsuliyyət düşür.

Onları bugünlərin qəhrəmanı da adlandırmaq olar. Çünki tibb işçiləri insanların sağlamlığını, həyatını təhdid edən koronavirusa qarşı mübarizədə fədakarlıq göstərirlər. Onlar öz peşələri gərəyincə həyatlarını riskə ataraq, ilk növbədə, şübhəli şəxsləri müayinə edir, onları təcrid olunan ərazilərə aparır, infeksiyaya yoluxan şəxslərin birbaşa müalicəsi ilə məşğul olurlar.

Azərbaycan dövləti vətəndaşlarının sağlamlığının qorunması, ağır xəstəliyə yoluxanların müalicəsi üçün gecə-gündüz çalışan həkimlərin əməyini yüksək dəyərləndirir. Onlara həm mənəvi, həm də maddi cəhətdən dəstək verilir. Prezident İlham Əliyevin imzaladığı "Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında" sərəncama əsasən, bu təhlükəli infeksiya ilə əlaqədar əmək şəraitinə görə dövlət tibb müəssisələrində çalışan işçilərin əməkhaqlarına aylıq vəzifə maaşının 3-5 misli miqdarında müddətli əlavə müəyyən edilib.

Öz peşələrinə, Hippokrat andına sadiq olan həkimlərimizin ilk gündən koronavirusa qarşı mübarizədə böyük əzmkarlıq, cəsarət nümayiş etdirdiklərini yüksək qiymətləndirən Prezident İlham Əliyev Bakıda "Yeni klinika" tibb müəssisəsinin açılışında deyib: "Mən fürsətdən istifadə edərək Azərbaycan həkimlərinə təşəkkürümü bildirmək istəyirəm. Biz onların maddi təminatının yaxşılaşdırılması üçün əlavə tədbirlər görmüşük. Bildiyiniz kimi, koronavirus xəstələrinə xidmət göstərən həkimlərin maaşı 3, 4, 5 misli məbləğində artırılıb. Bu, dövlət tərəfindən həkimlərə göstərilən diqqətin təzahürüdür. Ancaq mən bilirəm və tam əminəm ki, həkimlərin əsas motivasiyası bu deyil. Əsas odur ki, onlar öz vəzifə borcunu yerinə yetirmək istəyirlər. Onlar Hippokrat andına sadiqliklərini göstərmək istəyirlər. Onlar xalqımıza xas olan ən yüksək xüsusiyyətləri nümayiş etdirirlər və öz həyatlarını risk altına ataraq xəstələrə xidmət göstərirlər. Ona görə hər bir Azərbaycan vətəndaşı həkimlərə dəstək olmalıdır. O cümlədən koronavirusa yoluxmuş xəstələr başa düşməlidirlər ki, həkimlər belə ağır şəraitdə, sadəcə olaraq yeriməyə çətinlik yaradan geyimlərdə, maskalarda onlara xidmət göstərirlər. Ona görə həkimlər ən yüksək qiymətə layiqdirlər".

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva da tibb işçilərinin fədakar əməyini yüksək dəyərləndirib. Hamımızın çətin günlər yaşadığı, yeni, bugünədək elmə məlum olmayan təhlükəli xəstəliyin gündəlik həyatımızı alt-üst etdiyi bir vaxtda tibb işçilərinin ən vacib və ən mürəkkəb vəzifəni yerinə yetirdiklərini diqqətə çatdıran Mehriban Əliyeva vurğulayıb: "Bu günlərdə biz həkim peşəsinin niyə müqəddəs missiya adlandırıldığını yenidən dərk edirik. Bu peşə həqiqətən də həmişə dərin zəka və yüksək bacarıq tələb edib. Amma bu gün bizim tibb işçilərimizdən həm də böyük şəxsi cəsarət tələb olunur. Onlar bu çətin sınaqdan şərəflə çıxırlar. Epidemiya ilə mübarizəyə tibb işçilərimizdən ibarət böyük ordu qoşulub. Onların sırasında kişilər və qadınlar, təcrübəli həkimlər və hələ çox gənc olanlar, görkəmli xadimlər və bu peşəyə yenicə qədəm qoymuş ali təhsil müəssisələrinin məzunları, tibb bacıları, texniklər və sanitarlar var. Onlar bizim həmvətənlərimizin - təhlükəli virusa yoluxan insanların həyatını xilas edirlər".

Kimlərinsə evindən, mənzillərindən çölə çıxmasına qadağa qoyulduğu bu günlərdə həkimlər daim öz pasiyentlərinin, infeksiyaya yoluxma şübhəsi olan şəxslərin yanındadır.

Ümidsizlik həmişə bu xalqa yad olub. Odur ki, ən ağır günlərində də bütün problemlərin həllini tapacağına, gələcəyin daha gözəl olacağına inamını qoruyaraq "hər qaranlıq gecənin bir işıqlı sabahı var" deyib. Bütün dünyada pandemiyaya çevrilmiş koronavirus təhlükəsi də sovuşacaq. Öz vəzifə borcunu ləyaqətlə yerinə yetirən həkimlərin əməyi isə heç zaman unudulmayacaq.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

“Biz birlikdə güclüyük!”

# İLHAM ƏLİYEVDƏN xalqa növbəti çağırış

## Prezident Azərbaycanın bu çətin sınaqdan da az itki və şərəflə çıxacağını bəyan etdi

*Əvvəli 1-ci səh.*

Özünüməşğulluq proqramı 11 min nəfəri əhatə edəcək və işsizlikdən sığorta ödənişlərinin əhatə dairəsinə 20 min nəfər düşəcək. Həyati vacib sərnişindaşıma sahəsinə 280 milyon manat maliyyə dəstəyi veriləcək.

Aprel və may aylarında həm də elektrik enerjisi ilə bağlı limitlər tətbiq olunacaq. Bu xərc də dövlət büdcəsi hesabına qarşılanacaq və müvafiq istiqamətə 10 milyon manat vəsait ayrılacaq. Sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsi üçün 40 milyon manat nəzərdə tutulub.

### Hər gün 120 min tibbi maska istehsal ediləcək

Bu gün həm də koronavirus pandemiyası ilə əlaqədar tələbatın kəskin artması üzündən bütün ölkələrdə tibbi ləvazimat və qoruyucu vasitələrin, o cümlədən maskanın böyük qıtlığı yaşanır. İstehsalçı ölkələr isə tibbi maska ixracını dayandırmaqla yanaşı, istehsal avadanlığı və xammalın ixracını da saxlayıblar.

Ancaq Azərbaycanda pandemiyanın qarşısının alınması ilə bağlı həyata keçirilən bütün işlər Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir. Aprelin 6-da Sumqayıt Kimya Sənaye Parkında “Bakı Tekstil Fabriki” MMC tərəfindən yaradılan tibbi maska istehsalı müəssisəsinin açılışı da görülən işlərin tərkib hissəsidir. Yeni müəssisə tibbi maska və ləvazimatlara olan tələbatlarımızı ödəyəcək.

İnvestisiya xərcləri 3,9 milyon manat təşkil edən bu müəssisə birinci mərhələdə hər gün 120 min tibbi maska istehsal edəcək. Maskalar qablaşdırıldıqdan sonra xüsusi avadanlıqla əlavə olaraq sterilləşdiriləcək. Yaxın günlərdə daha bir istehsal xətti qurulacaq və ikinci mərhələdə istehsal həcmi 2 dəfə artırılaraq gündəlik istehsal 200-250 min tibbi maskaya çatdırılacaq. Müəssisənin məhsulları ilkin olaraq daxili bazarda tələbatı ödəməyə yönəldiləcək.

### Süni qiymət artımında əli olan şəxslər ciddi cəzalandırılacaq

Açılış mərasimində iştirak edən dövlət başçısı dünyanı cənginə alan koronavirus pandemiyasının dövlətlərə vurduğu hərtərəfli ziyandan və Azərbaycanda görülən qabaqlayıcı tədbirlərdən söz açdı.

Bəlli oldu ki, hazırda 20-dən çox xəstəxanada koronavirus xəstələri müalicə alırlar. Karantində qalan vətəndaşların sayı 4500 nəfərdir. Karantin rejimində olan ən çox insanların məkanı isə Atletlər kəndidir. Orada hazırda təqribən 1300 insan yerləşdirilib. Azərbaycanda bu günə qədər 53 min test keçirilib. Bu günə qədər 15 minə yaxın Azərbaycan vətəndaşı xarici ölkələrdən təxliyə edilib və onların böyük əksəriyyəti karantinə yerləşdirilib.

Qeyd edək ki, virusla mübarizədə maskalardan istifadə xüsusi əhəmiyyət daşıyır. Çünki indi dünyanın bir çox ölkələrində bu sahədə problemlər yaşanır. Azərbaycanda da qıtlıq yaranıb və bəzi hallarda apteklərdə tibbi maskalar tapılmır. Müəssisənin açılışı ilə Azərbaycan idxaldan qurtulacaq.

Dövlət başçısı bu ağır durumdan sui-istifadə edənlərə də sərt xəbərdarlıq etdi: “Maska qıtlığı artıq süni qiymət artımına da gətirib çıxarmışdır və bəzi hallarda maskaları altdan satırdılar. Bu hallara qətiyyən yol verməak olmaz və müvafiq dövlət qurumları çox ciddi nəzarət mexanizmi tətbiq etməlidirlər. Əgər süni qiymət artımı olarsa, bu işdə əli olan şəxslər ciddi cəzalandırılacaq. Çünki indiki pandemiya şəraitində belə addımlar xəyanət kimi qəbul ediləcək”.

### Aprelin 20-dən sonra yaranacaq vəziyyətə uyğun addım atılacaq

Ölkədə pandemiyaya qarşı aparılan mübarizə tədbirlərinin gücləndirildiyini deyən dövlət başçısı növbəti dəfə xalqa müraciət etdi.

Bu gün sərtləşdirilmiş, məhdudlaşdırıcı tədbirlərin qüvvədə olduğunu söyləyən Prezident vətəndaşların məsuliyyətli davranmasının, eləcə də özlərini, yaxınlarını, ailə üzvlərini qorumalı olduqlarının vacibliyini vurğuladı: “Bütün Azərbaycan vətəndaşlarına bir daha çağırış edib demək istəyirəm: Məsuliyyətli olun, nizam-intizamı, qaydaları pozmayın, özünüzü, uşaqlarınızı, yaxınlarınızı qoruyun ki, biz bu ağır vəziyyətdən az itkilərlə çıxa bilək! Biz birlikdə güclüyük!”

Prezident bir daha əmin olduğunu vurğuladı ki, vətəndaşlar bu qaydalara tam əməl edəcək və beləliklə, xəstəlik geniş vüsət almayacaq. Azərbaycan bu vəziyyətdən az itkilərlə çıxacaq.

Dövlət başçısı proseslərin gedişatını da dəyərləndirərək bildirdi ki, bütün hallarda ciddi karantin rejimi aprel ayının 20-dək qüvvədə qalacaq. Ondan sonra dövlət yaranacaq vəziyyətə uyğun şəkildə addım atacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# Pandemiya ilə mübarizədə İlham Əliyev örnəyi

## Azərbaycanın ümumbəşəri bəlaya qarşı əzmkar qabaqlayıcı tədbirlər planı Prezidentin siyasi müdrikliyinin və qətiyyətinin göstəricisidir

Azərbaycan koronavirusla mübarizədə önləyici addımlar atmaqda davam edir. Prezident İlham Əliyevin genişmiqyaslı iqtisadi-sosial paketi çərçivəsində hazırlanan dövlət dəstəyi proqramları isə ölkə əhalisi və beynəlxalq təşkilatlar tərəfindən çox yüksək dəyərləndirilir.

Bununla yanaşı, koronavirus pandemiyasının ölkəmizdə yayılmağa başlamasından qısa müddət sonra “Bakı Tekstil Fabriki” MMC tərəfindən yaradılan tibbi maska istehsalı müəssisəsinin açılışı Azərbaycanın bütün gözlənilməz vəziyyətlərdən alternativ, optimal çıxış yoluna sahib olduğunu bir daha təsdiq etdi.

Mütəxəssislər hesab edirlər ki, xüsusilə tibbi maskaların istehsalı ölkədə bu məhsula yaranan ehtiyacı böyük ölçüdə azaldacaq, vətəndaşlarımızın sağlamlığını daha effektli bir şəkildə qoruyacaq.

### Qabaqlayıcı tədbirlər müsbət nəticələrini göstərməkdədir

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bizimlə söhbətində bildirdi ki, Azərbaycanda koronavirus pandemiyası ilə mübarizə kompleks şəkildə bütün parametrlər nəzərə alınmaqla aparılır. Cənab Prezidentin müəyyən etdiyi qabaqlayıcı tədbirlər ölkəmizdə epidemiyanın geniş yayılmasının qarşısını almağa yönəlib və öz müsbət nəticələrini göstərməkdədir.

Komitə sədri deyir ki, Prezident İlham Əliyevin tapşırığı ilə ölkəmizin bütün resursları səfərbər olunub və koronavirus epidemiyası ilə ardıcıl, sistemli, çoxşaxəli mübarizə aparılır: “Sərhədlərin bağlanması, xaricdə olan 15 mindən çox vətəndaşımızın ölkəyə gətirilməsinin və karantin rejiminə keçirilməsinin təmin edilməsi, Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil olunması, Koronavirusla Mübarizəyə Dəstək Fondunun yaradılması, koronavirus infeksiyasının mənfi təsirlərinin azaldılması məqsədilə dövlət büdcəsindən başlanğıc olaraq 1 milyard manat vəsaitin hökumətə ayrılması, iki həftəlik sərt karantin rejiminə keçilməsi və s. bu kimi tədbirlər Azərbaycan dövlətinin bu ümumbəşəri bəla ilə mübarizədə nə qədər güclü və əzmkar olmasının, dövlət başçısının siyasi müdrikliyinin və qətiyyətinin göstəricisidir”.

### Cəmi iki həftəyə ölkəmizdə tibbi maska istehsalı müəssisəsi yaradıldı

Musa Quliyevin fikrincə, bu günlər dünyada koronavirusla mübarizədə tibbi vasitələrin, xüsusilə qoruyucu maskaların qıtlığı hökm sürür, hər kəs bu problemi öz imkanları daxilində həll etməyə çalışır. SSRİ kimi superdövlətin hüquqi və siyasi varisi olan, bu gün də dünyanın supergüclərindən sayılan nəhəng Rusiyada maska qıtlığını aradan qaldırmaq üçün evlərdə, sexlərdə, dərzi emalatxanalarında kustar üsulla maska tikməyə başlamışlar. Əlbəttə, bu da bir yoldur və heç olmamaqdansa, belə maskalara da qoruyucu vasitə kimi etibar etmək olar.



Azərbaycanda indiyə qədər maska istehsalı olmayıb və bu tibbi vasitəyə olan ehtiyac idxal hesabına ödənilib: “Lakin koronavirus pandemiyası başlanandan hətta maska istehsal edən ölkələr də bu qoruyucu vasitənin defisiti ilə üzləşməli oldular. Problemin əsaslı həlli isə yerli istehsalı təşkil etməkdən keçirdi. Cənab Prezident bu məsələni də öz nəzarətinə götürdü və olduqca qısa müddətə - cəmi iki həftəyə ölkəmizdə tibbi maska istehsalı müəssisəsi yaradıldı və fəaliyyətə başladı”.

Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın açılışını etdikləri Sumqayıt Kimya Sənaye Parkında Bakı Tekstil Kombinatının tibbi maska istehsalı müəssisəsi qısa müddət ərzində yaradılmış, ən müasir texnologiya və tibbi standartlara cavab verən bir istehsal müəssisəsidir.

Komitə sədri hesab edir ki, ayrı bir vaxtda və şəraitdə bu müəssisənin açılışına bəlkə o qədər də diqqət cəlb etməyəcək sıradan bir hadisə kimi baxmaq olardı. Çünki biz bir vətəndaş olaraq on beş ildən çoxdur ki, hər gün ölkəmizdə bir, yaxud bir neçə müəssisənin, yeni iş yerlərinin, sosial obyektlərin, parkların, yolların, körpülərin açılışını müşahidə edirik və bəlkə də bunları görmək bizim üçün adiləşmişdir. “Hərçənd ki, bizə adi, gündəlik hadisə kimi gələn bu açılışlar, əslində, Azərbaycanın yeniləşmə, inkişaf və rifah göstəricisidir!” - deyə Musa Quliyev bildirdi.

M.Quliyev qısa zaman ərzində Azərbaycan dövlətinin əldə etdiyi bu uğuru belə dəyərləndirir: “Koronavirusla mübarizədə dünyanın İran, İtaliya, İspaniya, Fransa, Amerika və s. bu kimi qosqoca dövlətlərinin az qala çaşqınlıq, ümidsizlik və depressiya içərisində çabaladığı bir dövrdə Azərbaycan dövləti özəl sektorla birlikdə ən qısa müddətdə öz daxili tələbatını ödəyə biləcək gücdə tibbi maska istehsal edən yeni bir müəssisə qura bilirsə, bu, dövlətin gücünün, nüfuzunun, dövlət rəhbərinin siyasi əzminin, iradəsinin, prosesləri qabaqlayaraq idarə etmək və zamanında düzgün qərar qəbul etmək kimi müdrikliyinin göstəricisidir!”.

### “Çəkicimizi bir zindana vurmaq zamanıdır”

Cənab Prezidentin çıxışındakı başqa bir mühüm məqam defisitlə əlaqədar yaranmış möhtəkirlik hallarına qarşı ciddi mübarizə aparılmasının vacibliyinin vurğulanmasıdır. Dövlət başçısı maska qıtlığından istifadə edib sünə şəkildə qiymət artıran şəxslərə sərt xəbərdarlıq etdi.

Musa Quliyev hesab edir ki, belə çətin bir zamanda xalqın ehtiyacından və defisitdən yararlanaraq möhtəkirlik etmək vətənə və millətə qarşı xəyanətdir:

“Koronavirus dövlət sərhədlərini tanımır, sosial sədləri tanımır, alim-nadan, varlı-kasıb, qoca-cavan tanımır. Bu bəladan heç kəs sığortalanmayıb. Bu bəladan hamımız birlikdə qoruna bilərik, bir-birimizi qorumaqla!”- deyən komitə sədri hesab edir ki, xalqın mədəniyyəti və xarakteri ekstremal vəziyyətlərdə özünü daha qabarıq şəkildə büruzə verir. Mədəniyyətin ən mühüm göstəricilərindən biri də intizamlı olmaq və özünü təşkil etmək keyfiyyətidir. Xalqın bir məqsəd naminə səfərbər olunması keyfiyyəti olduqca yüksəkdir:

“Böyük təhlükələri böyük mütəşəkkilliklə, böyük birliklə, böyük intizamla önləmək mümkündür. Çəkicimizi bir zindana vurmaq zamanıdır. Biz birlikdə güclüyük!”

***R.BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# İş yerlərinin qorunması, məşğulluğa və sosial rifaha dəstək istiqamətində ardıcıl tədbirlər görüləcək

Məlum olduğu kimi, Prezident İlham Əliyevin 19 mart 2020-ci il tarixli sərəncamının icrası ilə bağlı Nazirlər Kabinetinin təsdiqlədiyi Tədbirlər Planı koronavirus pandemiyasının milli iqtisadiyyata, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması, mövcud şəraitdə sosial rifahın dəstəklənməsi üçün genişmiqyaslı, təsirli və məqsədəuyğun tədbirləri özündə əhatə edir.

Sənəddə iş yerlərinin qorunması, məşğulluğa və sosial rifaha dəstəyin təmin olunması aparıcı tədbirlər sırasındadır. Belə ki, sözügedən sənədə əsasən, məşğulluğa və sosial rifaha dəstək, o cümlədən işçilərin işsizlik riskindən qorunması və sosial müdafiəsi məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) tərəfindən bir sıra istiqamətlərdə tədbirlər görüləcək. Həmin tədbirlər sırasına dövlət sektoru üzrə işçilərin əsassız yerə işdən çıxarılmasına, ixtisarına yol verilməməsi və məzuniyyətə buraxılan işçilərin əməkhaqlarının saxlanması üçün aprel-may aylarında müvafiq işlərin aparılması daxildir. ƏƏSMN-nın məlumatına görə, bu istiqamət üzrə görüləcək işlər həmin sektorda çalışan 910 min işçini əhatə edəcək. Qeyri-dövlət sektoru üzrə işçilərin əsassız işdən çıxarılmasına, ixtisarına yol verilməməsi məqsədilə aprel-may aylarında işəgötürənlərlə bağlı iş aparılmaqla gündəlik nəzarətin təmin olunması da sözügedən tədbirlər sırasına daxildir. Bu istiqamətdə işlər isə qeyri-dövlət sektorunda çalışan 664 min işçiyə şamil olunacaq.

İşsiz və işdən azad olunmuş şəxslərin məşğulluğu və sosial müdafiəsi istiqamətində də ƏƏSMN tərəfindən tədbirlər görülməsi nəzərdə tutulur. Bu tədbirlərə nələr aiddir?

- 50 min haqqı ödənilən ictimai iş yerinin (2020-ci ilin aprel-may ayları) yaradılması vasitəsilə həmin iş yerlərində işsiz şəxslərin müvəqqəti məşğulluğu təmin ediləcək. Bu məqsəd üçün 30 milyon manat vəsait nəzərdə tutulub;

- Nazirliyin yanında Dövlət Məşğulluq Xidməti orqanlarında işsiz kimi qeydiyyata alınan şəxslərə (200 min nəfər) 2020-ci ilin aprel-may aylarında hər ay üçün yaşayış minimumu həcmində (190 manat) birdəfəlik ödəmə veriləcək. Bunun üçün 70 milyon manat yönəldiləcək;

- İşsizlikdən Sığorta Fondu, BMT İnkişaf Proqramı və Dünya Bankı ilə əməkdaşlıq çərçivəsində həyata keçirilən özünüməşğulluq proqramının genişləndirilməsi və icrasının sürətləndirilməsi təmin olunacaq. Proqram bu il üzrə 11 min nəfəri əhatə edəcək və İşsizlikdən Sığorta Fondu hesabına bu məqsəd üçün 70 milyon manat ayrılması nəzərdə tutulub;

- İşsizlikdən sığorta ödənişlərinin əhatə dairəsi genişləndiriləcək və bu sahədə proaktiv təyinat mexanizmi yaradılacaq. 2020-ci ilin aprel-dekabr ayları üzrə bu tədbir 20 min nəfəri əhatə edəcək və bu məqsəd üçün İşsizlikdən Sığorta Fondu hesabına 20 milyon manat ayrılacaq;

- İşsizlikdən sığorta ödənişi bitmiş, lakin işlə təmin olunmamış şəxslərə sığorta ödənişinin və peşə hazırlığı kurslarında fasilə yaranmış müdavimlərə təqaüdlərin verilməsi xüsusi karantin rejimi dövründə davam etdiriləcək. Bu istiqamət üzrə işlər cari ilin aprel-may ayları üzrə 2 min nəfəri əhatə edəcək və İşsizlikdən Sığorta Fondu hesabına bu istiqamətə 0,6 milyon manat ayrılacaq.

Əhalinin xüsusi həssas təbəqəsindən olan şəxslərin sosial müdafiəsinin gücləndirilməsi istiqaməti üzrə isə nazirlik tərəfindən aşağıdakı tədbirlər həyata keçiriləcək:

- Sosial sığorta haqlarının azalması şəraitində kəsirinin bağlanması və əhaliyə sosial ödənişlərin (pensiya və müavinətlər) davamlılığının təmin edilməsi məqsədilə bu ilin aprel-dekabr ayları üzrə Nazirlik yanında Dövlət Sosial Müdafiə Fondunun (DSMF) 2019-cu il üzrə yaranmış 200 milyon manat ehtiyatından istifadə olunacaq;

- Ünvanlı dövlət sosial yardımı xüsusi karantin rejimi dövründə bitən ailələrə (şəxslərə) yardımın verilməsinin xüsusi karantin rejimi bitənədək davam etdirilməsi və bu dövrdə ünvanlı dövlət sosial yardımının təyinatının sadələşdirilməsi təmin olunacaq. DSMF-dən bunun üçün 3 milyon manat ayrılıb.

Tədbirlər Planında, həmçinin yaşı 65-dən yuxarı tənha şəxslərə evlərində sosial xidmətlərin göstərilməsi və xüsusi qayğıya ehtiyacı olan şəxslərə sosial xidmət müəssisələrində xidmət göstərilməsi də əksini tapır. Cari ilin aprel-may ayları üzrə bu xidmətlər 14 min nəfəri əhatə edəcək.

***Raqif MƏMMƏDLİ,***
***“Azərbaycan”***

# Könüllülük fəaliyyəti mənəvi dəyərlər üzərində qurulur

Məlum olduğu kimi, 2020-ci il Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamına əsasən “Könüllülər ili” elan olunub. Bununla əlaqədar olaraq cari il ərzində ölkəmizdə mövcud olan geniş könüllü kütləsinin də iştirakı ilə müxtəlif layihə və tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Lakin bu ilin əvvəlindən etibarən meydana çıxan və dünyada sürətlə yayılmağa başlayan koronavirus (COVID-19) pandemiyası səbəbilə bu tədbirlərin keçirilməsi müvəqqəti olaraq dayandırıldı.




Həmçinin dünyada bir milyondan çox insanın bu virusa yoluxduğu və on minlərlə insanın dünyasını dəyişdiyi də hər kəsə məlumdur. Adıçəkilən virusun dünyada sürətlə yayılması ölkəmizə də təsirsiz ötüşmədi.

Bu gün koronavirusun yayılmasının qarşısının alınması və bu təhlükənin aradan qaldırılması üçün mübarizəyə həkimlərimiz, hüquq mühafizə orqanlarının əməkdaşları, bir çox təşkilatlar və müxtəlif peşə sahibləri qoşulub. Evdən çölə çıxmağın, insanlarla yaxın təmasda olmağın ciddi həyati təhlükəyə gətirib çıxardığı belə bir həssas dönəmdə dövlətin və xalqın yanında olan vətəndaşların böyük bir qrupu da könüllülərdir. Hər zaman insanlara qarşılıqsız, təmənnasız xidmət etməyi özünə həm mənəvi borc, həm də vətəndaşlıq vəzifəsi hesab edən Azərbaycan könüllüləri belə həssas bir dönəmdə üzərlərinə düşən vəzifələri icra etmək üçün əllərindən gələni əsirgəmirlər.

Bu gün könüllülər fəal şəkildə sosial mediada genişmiqyaslı müxtəlif təyinatlı maarifləndirmə kampaniyaları aparır, koronavirus pandemiyası ilə əlaqədar ölkəmizdə həyata keçirilən tədbirlər barədə ictimaiyyəti məlumatlandırır, şəxsi gigiyena və sosial təcridolunmanın əhəmiyyəti ilə bağlı müxtəlif virtual aksiyalar təşkil edir, tənha və ahıl vətəndaşlara sosial xidmətlərin göstərilməsi işində, eləcə də aztəminatlı ailələrə dövlət və müxtəlif təşkilatlar tərəfindən edilən yardım kampaniyalarında yaxından iştirak edirlər.

Könüllülük - xeyirxahlıq, mərhəmət, insansevərlik, vətənpərvərlik kimi ən ali dəyərlər üzərində qurulan bir fəaliyyətdir. Zəngin mənəvi dəyərlərə sahib olan Azərbaycan xalqı ta qədimdən bu ənənələrə sahib olmuş və onlar nəsildən-nəslə ötürülərək bugünümüzə qədər gəlib çatmışdır. 2009-cu ildə qəbul edilmiş “Könüllü fəaliyyət haqqında” qanuna əsasən könüllülük fəaliyyəti şəxsi iradə və azad seçim əsasında cəmiyyətin rifahının daha da yaxşılaşdırılmasını qarşıya məqsəd qoyan, əhalinin həssas qruplarından olan insanlara (əlillər, qocalar, kimsəsiz uşaqlar, ehtiyacı olan kəslər və s.) göstərilən fiziki və mənəvi yardım, cəmiyyətdə maarifləndirmə işinin aparılması, vətəndaş fəallığının artırılması, sağlam həyat tərzinin təbliğ edilməsi, ətraf mühitin qorunması və s. məqsədlərlə həyata keçirilən layihə və tədbirlərdə göstərilən təmənnasız sosial xidmətdir.

Könüllülük sosial-ictimai fəaliyyət kimi XVII əsrdə Fransada yaranmış, XIX-XX əsrlərdə isə dünyada daha geniş yayılmağa başlamışdır. Könüllülüyün yaranma tarixinə nəzər salsaq görərik ki, könüllülük fəaliyyəti yarandığı ilk dövrlərdə təbii fəlakətlərin nəticələrinin, müharibələr zamanı baş verən dağıntıların aradan qaldırılmasına, münaqişə vəziyyətlərinin həllinə, yoxsulluğun aradan qaldırılmasına və s. istiqamətlərə yönəlmişdir. Müasir dövrümüzdə isə könüllülük demək olar ki, fəaliyyətin bütün sahələrinə nüfuz edərək ümummilli hərəkata çevrilmişdir. Bu gün Azərbaycanın könüllü gəncləri kreativ təşəbbüskarlıqları, innovativ düşüncə tərzi və müasir dünyagörüşləri ilə qoşulduqları fəaliyyətə yeni nəfəs verir, ölkəmizin dayanıqlı inkişafında, irimiqyaslı beynəlxalq tədbirlərin həyata keçirilməsində əvəzsiz rol oynayırlar.

2020-ci ilin ölkəmizdə “Könüllülər ili” elan edilməsi ölkə rəhbərliyinin könüllülərə göstərdiyi etimadın təzahürüdür. Doğrudur, koronavirus epidemiyasının dünyada sürətlə yayılması və ölkəmizdən də yan keçməməsi nəticəsində könüllülərlə bağlı nəzərdə tutulan tədbirlərin təxirə salınması müəyyən qədər təəssüf doğurur. Lakin Azərbaycan könüllüləri bu gün ölkə başçısı cənab İlham Əliyevin koronavirus infeksiyasının ölkəmizdə yayılmasının və onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə etdiyi çağırışlara, atdığı addımlara cavab verərək onlara göstərilən etimadı doğrultmağa çalışır, eyni zamanda, bunu özləri üçün insanlıq borcu hesab edirlər.

Mən bir gənc könüllü olaraq dövlətimizin, xalqımızın belə çətin sınaqla üzləşdiyi bir zamanda bütün vətəndaşlarımızı Prezident İlham Əliyevin ətrafında daha da sıx birləşməyə, könüllülərimizi əhalinin maarifləndirilməsi və qayğıya ehtiyacı olan insanlara sosial xidmətlərin göstərilməsi istiqamətində həyata keçirilən tədbirlərdə daha da fəal iştirak etməyə səsləyirəm.

Əziz könüllülər, özümüzü sübut etməyin əsl vaxtıdır!

Bu il bizim ilimizdir!

***Vüsalə FƏTULLAYEVA,***
***Mənəvi Dəyərlərin Təbliği Fondunun könüllüsü***

# Aztəminatlı ailələrə və tənha ahıllara diqqət və qayğı göstərilir

Ölkəmizdə tətbiq olunan xüsusi karantin rejimi ilə əlaqədar olaraq Gəncədə də koronavirus (COVID-19) pandemiyasına qarşı mübarizə məqsədilə evdə özünütəcrid vəziyyətində qalan və sosial yardıma ehtiyacı olan 65 yaşdan yuxarı tənha və ahıl şəxslərin ehtiyaclarının ödənilməsinə, onlara lazımi sosial-tibbi və mənəvi köməyin göstərilməsinə diqqət artırılıb.




Bu məqsədlə Gəncə Şəhər İcra Hakimiyyətinin könüllü əməkdaşları tənha yaşayan ahıl vətəndaşlara və aztəminatlı ailələrə baş çəkərək xeyirxah aksiyalar həyata keçirirlər. Öncə Böyük Vətən müharibəsinin iştirakçısı olan 98 yaşlı Tofiq Hüseynovun və 96 yaşlı Bəylər Verdiyevin evində olan könüllülər onlarla maarifləndirici söhbətlər aparmış və Nazirlər Kabinetinin yanında Operativ Qərargah tərəfindən elan edilən xüsusi karantin rejiminin qaydalarını nəzərlərinə çatdırmışlar. Qeyd edilmişdir ki, şəhər icra hakimiyyətində koronavirusa qarşı mübarizə qərargahı fəaliyyət göstərir. Ehtiyac yarandıqda həmin qərargahın qaynar xəttinə zəng etmək mümkündür.

Tək yaşamasına baxmayaraq, hərtərəfli dövlət qayğısı ilə əhatə olunduğunu bildirən Tofiq Hüseynov göstərdiyi diqqət və qayğıya görə ölkə başçısına, eləcə də şəhər rəhbərliyinə minnətdarlığını bildirmişdir. Söhbət zamanı 98 yaşlı müharibə veteranı əhalini xüsusi karantin rejimi qaydalarına əməl etməyə və evdə qalmağa çağırmışdır.

I qrup əlil Bəylər Verdiyev də öz növbəsində ona göstərilən qayğıya görə təşəkkür etmiş və demişdir ki, bu gün dövlətimiz koronavirus infeksiyasının ölkə ərazisində yayılmasının qarşısının alınması üçün bütün zəruri tədbirləri görür. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva bu vacib məsələyə xüsusi həssaslıqla yanaşırlar. Virusun ölkə ərazisində yayılmaması üçün isə vətəndaşlar daha məsuliyyətli olmalı, xüsusi karantin rejimi qaydalarına sözsüz əməl etməlidirlər.

Qeyd edək ki, Gəncə Şəhər İcra Hakimiyyətinin könüllüləri bir neçə gün ərzində 100-dən artıq aztəminatlı ailədə və 65 yaşdan yuxarı tənha vətəndaşların yanında olmuşlar.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***

Qabaqlayıcı tədbirlər səmərə verir

# Həyat da, böyük məqsədlər də sağlamlıqdan başlanır



İnsan sağlamlığının bəşəriyyət üçün nə qədər böyük önəm daşıdığını xüsusi qeyd etməyə bəlkə də heç ehtiyac yoxdur. Hamımız üçün həyat da, böyük məqsədlər də, qazandığımız nəticələr də məhz sağlamlıqdan başlanır. O olmasa, bunların heç bir dəyəri qalmaz. Ona görə hər il 7 aprel gününün sağlamlıq məsələsinə həsr olunması dünyada yaşayan bütün insanlar üçün əhəmiyyətlidir.

Bu il isə Ümumdünya Sağlamlıq Gününün önəmini artıran başqa məqamlar da var. Məsələ hazırda dünyanın bütün ölkələrində yayılaraq ümumən bəşəriyyəti təhdid edən COVID-19 koronavirus infeksiyasının yaratdığı qlobal problemlərlə bağlıdır. Belə bir xəstəliyin törətdiyi çətinliklərdən sonra indi hər kəs insan səhhətinin, Yer üzündə hamımız üçün sağlam bir mühitin yaradılmasının, xəstəliklərə qarşı birgə mübarizənin nə qədər mühüm zərurət olduğunu hiss edir. Eyni zamanda, həkim və ümumən tibb işçisi sənətinin nəcə çətin və məsuliyyətli bir iş olduğunu da hər kəs anlayır. Bu sahədə çalışan insanların başqalarının həyatını xilas etməkdən ötrü göstərdikləri fədakarlıqları, qəhrəmanlıqları hamı alqışlayır.

Martın 28-də Bakıdakı "Yeni klinika" tibb müəssisəsinin açılışından sonra müəssisənin kollektivi ilə görüşü zamanı Azərbaycan Prezidenti İlham Əliyev də səhiyyə işçilərini alqışlayaraq onların şəxsində bu gərgin günlərdə koronavirus epidemiyasına qarşı mübarizə aparan bütün tibb işçilərinə sevgisini və təşəkkürünü bildirdi. Bu mübarizədə əsas yükün məhz həkimlərin üzərinə düşdüyünü qeyd etdi: "Mən fürsətdən istifadə edərək Azərbaycan həkimlərinə təşəkkürümü bildirmək istəyirəm. Biz onların maddi təminatının yaxşılaşdırılması üçün əlavə tədbirlər görmüşük. Bildiyiniz kimi, koronavirus xəstələrinə xidmət göstərən həkimlərin maaşı 3, 4, 5 misli məbləğində artırılıb. Bu, dövlət tərəfindən həkimlərə göstərilən diqqətin təzahürüdür. Ancaq mən bilirəm və tam əminəm ki, həkimlərin əsas motivasiyası bu deyil. Əsas odur ki, onlar öz vəzifə borcunu yerinə yetirmək istəyirlər. Onlar Hippokrat andına sadiqliklərini göstərmək istəyirlər. Onlar xalqımıza xas olan ən yüksək xüsusiyyətləri nümayiş etdirirlər və öz həyatlarını risk altına ataraq xəstələrə xidmət göstərirlər".

Dövlət rəhbərimizin həmin görüş zamanı səsləndirdiyi "Biz birlikdə güclüyük!", "Azərbaycan həkimlərinə eşq olsun!" və "Evdə qal, Azərbaycan!" kimi şüarların ölkəmizin müasir memarlıq rəmzlərindən biri olan "Alov qüllələri"ndə əks olunması da həm tibb işçilərinin fədakar əməyinə ehtiramın, həm də onlara dəstəyin, həmrəyliyin ali ifadəsi idi.

Ümumdünya Sağlamlıq Gününün builki daha bir əlamətdar məqamı isə ondan ibarətdir ki, 2020-ci ildə 7 aprel gününün məhz bu məzmunda keçirilməsindən, bütün dünyada Ümumdünya Sağlamlıq Günü olaraq qeyd edilməsindən düz 70 il ötür. Belə bir tarixi günün meydana gəlməsi BMT-nin ixtisaslaşmış qurumlarından olan Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) yaradılması ilə birbaşa əlaqəlidir. 1946-cı ildə ÜST yaradılmış, bundan iki il sonra - 1948-ci ildə isə birinci Ümumdünya Səhiyyə Assambleyası ÜST-ün yaradılmasını qeyd etmək üçün Ümumdünya Sağlamlıq Gününün təsis edilməsi təşəbbüsü ilə çıxış etmişdir. Beləliklə, 1950-ci ildən başlayaraq hər ilin 7 aprel tarixi Ümumdünya Sağlamlıq Günü olaraq qeyd edilir. Bu günün mövzusu isə ÜST-ün prioritet saydığı bir problem başəriyyətin diqqət mərkəzinə gətirilir. Belə bir tarixi günün mövcudluğu səhiyyə sahəsində diqqəti beynəlxalq ictimaiyyətə təsir göstərən başlıca problemlərə yönəltmək kimi qlobal bir imkandır.

Azərbaycanda əhalinin sağlamlığı, səhiyyə xidmətlərinin vətəndaşlar üçün əlçatanlığının təmin olunması dövlətimizin həyata keçirdiyi siyasətin əsas istiqamətlərindəndir. Ümummilli Lider Heydər Əliyevin milli inkişaf strategiyasında bu məsələ xüsusi yer tuturdu. Ulu Öndər ölkə əhalisinin sağlamlığı ilə bağlı dövlətin üzərinə düşən zəruri tədbirləri həyata keçirməklə yanaşı, vətəndaşların sağlamlığının qorunması missiyasını yerinə yetirən əsas insanlar kimi həkimləri də yüksək mənəvi dəyərlərə sadiqlik göstərməyə, özünüinkişafa, sosial məsuliyyətə çağırırdı.

Həyata keçirdiyi məqsədyönlü siyasətin uğurları sayəsində ölkəmizi tarixinin ən qüdrətli mərhələsinə yetirmiş Prezident İlham Əliyev üçün də əhalinin sağlamlığı əsas prioritetlərdəndir. Dövlət rəhbərimizin bu sahəyə xüsusi qayğısı nəticəsində ölkənin hər bir bölgəsində müasir tibb müəssisələri şəbəkəsi yaradılıb. Xəstəxanalarımız, tibb müəssisələrimiz bütünlüklə yenilənib və bu proses yenə davam etdirilir.

Həm dövlət başçısının, həm də Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birbaşa rəhbərliyi, nəzarəti ilə həyata keçirilən sosialyönümlü siyasətin mühüm tərkib hissəsi kimi ölkəmizdə yeni tibb ocaqları tikilir. Bu müəssisələrin siması dəyişir, maddi-texniki bazası gücləndirilir, təminatı yaxşılaşdırılır. Mərkəzi şəhərlərimiz kimi, ucqarlardakı tibb müəssisələri də müasir avadanlıqlarla, cərrahiyyə otaqları ilə təmin olunur.

İndi ucqar xəstəxanalarda da ən mürəkkəb əməliyyatları icra etmək mümkündür. Kardiocərrahiyyə, o cümlədən uşaqların anadangəlmə ürək qüsurları əməliyyatları, orqan transplantasiyaları və s. bu kimi son illərə qədər Azərbaycanda inanılmaz görünən mürəkkəb əməliyyatlar indi yerli klinikalarda həkimlər tərəfindən uğurla həyata keçirilir. Böyük diaqnostik imkanlara və kadr potensialına malik olan belə tibb ocaqlarının yaradılması həm paytaxtda, həm də bütün regionlarda əhaliyə yüksək keyfiyyətli və hərtərəfli tibbi xidmət göstərmə imkanı yaradır. İcra edilən dövlət proqramları sayəsində müxtəlif xəstəliklərdən ölüm hallarının sayı xeyli azalıb. Ayrı-ayrı xəstəlikləri olan insanların ömrünün uzandığı müşahidə edilir.

Mehriban xanım Əliyevanın təşəbbüsü əsasında yaradılmış Respublika Talassemiya Mərkəzində irsi qan xəstəliklərinin radikal müalicə üsulu olan sümük iliyinin transplantasiyası əməliyyatı uğurla həyata keçirilir. Əhalinin donorluğa cəlb edilməsi işinin aktivləşdirilməsi nəticəsində tədarük olunan qan və onun komponentlərinin miqdarı ilbəil artırılır. Hazırda tibb müəssisələrinin və xəstələrin "təhlükəsiz" donor qanına və onun komponentlərinə olan ehtiyacı tam ödənilir. Artıq Azərbaycanda talassemiyalı xəstə uşaqların doğulmasının qarşısı alınması istiqamətində konkret addımlar atılır.

Hazırda ölkədə "Şəkərli diabet xəstəliyi üzrə" 3-cü Dövlət Proqramı da uğurla icra olunmaqdadır. Eyni zamanda, "Ana və uşaqların sağlamlığının qorunması üzrə Dövlət Proqramı" çərçivəsində mütəmadi olaraq ana və uşaqlara xidmət göstərən tibb müəssisələrinin, xüsusən neonatoloji reanimasion şöbələrin maddi-texniki bazası gücləndirilir, dərman preparatları və tibbi texnika ilə təminatı yaxşılaşdırılır.

Son illərə qədər səhiyyəmizin qarşısında duran ən çətin problemlərdən biri kimi xroniki böyrək çatışmazlığından əziyyət çəkən insanların hemodializ müalicəsi də artıq öz həllini tapıb. Həm mərkəzdə, həm də regionlarda insanlar dövlətin bu sahədə yaratdığı imkanlardan istifadə edə bilirlər.

Qonşu ölkələrdə baş verən epidemioloji gərginliyə baxmayaraq, yoluxucu xəstəliklərlə mübarizə və profilaktika sahəsində aparılan kompleks profilaktik tədbirlər respublikada epidemioloji sabitliyi qoruyub saxlamağa imkan verir. Avropanın inkişaf etmiş ölkələrində olduğu kimi, ölkəmizdə də uşaqların 10-dan çox xəstəliyə qarşı immunlaşdırma tədbirləri ilə müdafiəsi təmin edilir. Bütün bunların nəticəsi kimi, poliomielit, difteriya, göy öskürək, epidemik parotit xəstəlikləri ölkədə artıq müşahidə edilmir, tetanus və məxmərək xəstəlikləri tək-tək hallarda baş verir. Ölkədə həyata keçirilmiş genişmiqyaslı tibbi-profilaktika tədbirləri nəticəsində artıq 6 ildir ki, malyariyanın yerli yoluxması baş vermir. Vərəmin diaqnostikasının yaxşılaşdırılması, dərmanlara davamlı xəstələrin aktiv müalicəyə cəlb olunması, genişmiqyaslı profilaktik tədbirlərin görülməsi nəticəsində bu xəstəlik üzrə də epidemioloji vəziyyətin stabilləşməsi müşahidə olunub.

İnsanların sağlamlığının təmin olunmasında müstəsna rol oynayan həkimlərin, tibb işçilərinin peşəkar hazırlığı məsələlərinə də xüsusi diqqət yetirilir. Tibb təhsilində davamlı islahatlar aparılır. Xarici ölkələrin qabaqcıl təhsil təcrübəsi ölkəmizə gətirilir. Səhiyyə işçilərinə Avropa klinikalarında təcrübə keçmək imkanı yaradılır. Onların fərdi inkişafı üçün digər məqsədyönlü addımlar atılır. Bütün bunların nəticəsidir ki, hazırda xəstəxanalarımızda ən müasir müalicə üsullarından istifadə edilir. Azərbaycan Prezidentinin bununla bağlı qarşıya qoyduğu konkret vəzifələr var: "Bu gün bizim səhiyyə infrastrukturumuz həkimlərin peşəkarlığı və bilikləri ilə uzlaşmalıdır. Hələ ki, bu istiqamətdə görüləsi işlər çoxdur. Əlbəttə, siz yaxşı bilirsiniz ki, dünya tibb elmi sürətlə inkişaf edir. Bu gün elə xəstəliklər müalicə olunur ki, əvvəlki illərdə bu xəstəliyin çarəsi yox idi. Ona görə Azərbaycan həkimləri, xüsusilə həkimlərin gənc nəsli, orta nəsli daim öz üzərində işləməlidir ki, bütün dünyada mövcud olan və yaranan yeni texnologiyalar, yeni müalicə qaydaları, yeni müalicə üsulları bizdə tətbiq olunsun. Mən hesab edirəm ki, bu sahədə əlavə işlərin görülməsi lazımdır".

Azərbaycanda icbari tibbi sığortanın tətbiqinə başlanması da son illər ölkəmizdə səhiyyə sahəsində aparılan islahatların ən böyük uğurlarındandır. Bu istiqamətdə müəyyən edilmiş vəzifələrin həyata keçirilməsindən ötrü müvafiq infrastruktur formalaşdırılıb. Məqsəd əhaliyə etibarlı, keyfiyyətli, səmərəli tibbi xidmətlərin göstərilməsinə zəmanət verəcək universal və dayanıqlı tibbi sığorta imkanı formalaşdırmaqdır. Zamanından və məkanından asılı olmayaraq sığorta olunanların keyfiyyətli tibbi xidmətlərə əlçatanlığını təmin etməkdir.

7 aprel Ümumdünya Sağlamlıq Günü həm də indi dünyanın hər yerində COVID-19 pandemiyasına qarşı döyüşən bütün tibb işçilərinə minnətdarlıq fürsətidir. Ümumdünya Səhiyyə Təşkilatının rəsmi saytındakı şüarda elə bu cür də əks olunub: "Sağ ol deməyə bircə an lazımdır!"

Biz də o bir anımızı əsirgəmədən, insanların sağlamlığı qayğısına qalan hər kəsə təşəkkürümüzü bildirir, dünyamızın bu çətinliklərdən tezliklə çıxmasını diləyirik.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Azərbaycanda koronavirusa daha 76 yoluxma faktı qeydə alınıb, bir nəfər həyatını itirib

Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına daha 76 yoluxma faktı qeydə alınıb, bir nəfər həyatını itirib.

Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahından AZƏRTAC-a bildirilib ki, koronavirus (COVID-19) üçün götürülən analiz nümunələri müsbət çıxmış 1953-cü il təvəllüdlü, şəkərli diabet xəstəsi olan vətəndaşın səhhətinin stabilləşdirilməsi ilə bağlı aparılan reanimasiya tədbirləri nəticə verməyib. Onun ailə üzvləri və ünsiyyətdə olduğu digər şəxslər müəyyən edilir və karantinə götürülür.

Hazırkı dövrədək ölkəmizdə 717 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 44 nəfəri müalicə olunaraq sağalıb, 8 nəfər həyatını itirib, 665 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 23 nəfərin vəziyyəti ağır, 31 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 53 300 test aparılıb.

# Azərbaycanda koronavirusun yayılması geniş vüsət almayıb

Qlobal problemə çevrilmiş yeni koronavirus (COVID-19) infeksiyasının yayılmasına qarşı bütün dünyada intensiv qabaqlayıcı tədbirlər görülməsinə baxmayaraq, pandemiyanın qarşısını almaq və onun törətdiyi fəsadları minimuma endirmək səyləri hələ ki, nəticə vermir. Ən inkişaf etmiş ölkələr belə bu virusla mübarizədə acizdirlər, gündə yüzlərlə insanın həyatı sona yetir. Son məlumata görə, dünyada indiyədək qeydə alınmış yoluxma hallarının sayı 1 356 000-i ötüb. Koronavirus qurbanlarının sayı isə 75 762 nəfərə çatıb.
Dünyada koronavirusdan ən çox ölüm hadisəsi İtaliya, İspaniya, ABŞ, Fransa və Böyük Britaniyada qeydə alınıb. 286 877 nəfər isə koronavirusdan sağalıb.

## Ölkələrin koronavirus "mənzərə"si



Müxtəlif ölkələrin koronavirusla bağlı son statistikalarına nəzər yetirək.

İtaliyada COVID-19 virusundan ölənlərin sayı gün ərzində 525 nəfər artaraq 15 887-ə çatıb. Hazırda yoluxanların ümumi sayı 128 948 nəfər təşkil edir.

İranda daha 133 nəfər koronavirusun qurbanı olub. Bununla da ölkədə infeksiyadan ölənlərin sayı 3872 nəfərə çatıb. Ümumilikdə ölkədə virus daşıyıcılarının sayı 62589 nəfərə çatıb. 27039 nəfər koronavirusdan sağalaraq xəstəxanalardan buraxılıb. İranda indiyədək 300 tibb işçisi koronavirusa yoluxub, onlardan 10 nəfəri dünyasını dəyişib.

ABŞ-da koronavirusun yayılması və ölüm halları gec başlasa da, indi bu ölkə az qala pandemiyanın əsarəti altındadır. Artıq Birləşmiş Ştatlarda yeni koronavirusun səbəb olduğu xəstəlikdən ölənlərin sayı 10 mini keçib. Belə ki, 347 003 nəfərə koronavirus diaqnozu qoyulub, 10 335 nəfər ölüb, 18 953 nəfər isə sağalıb.

Fransada 833 nəfər COVID-19-dan vəfat edib. Bununla da bu pandemiyadan ölənlərin ümumi sayı 8911 olub. Koronavirusa yoluxmuş və xəstəxanalara yerləşdirilmiş 29722 xəstədən 6948-i reanimasiya şöbəsindədir. 17249 xəstə sağalaraq xəstəxanaları tərk edib. Ölkədə COVID-19 virusu daşıyıcılarının rəsmi sayı 74390-dır.

Almaniyada koronavirusa yoluxma ilə təsdiq edilmiş halların sayı 95391-ə çatıb. Ölkədə ümumilikdə 1434 nəfər pandemiyanın qurbanı olub. Son sutka ərzində 3677 virusa yeni yoluxma aşkarlanıb, ölənlərin sayı 92 nəfər təşkil edib.

İspaniyada son sutkada daha 743 nəfər koronavirusdan ölüb. Bununla da pandemiyadan ölənlərin sayı 13 798-ə çatıb. Ölkənin Səhiyyə Nazirliyi bildirib ki, epidemiya müddətində 19 mindən çox tibb işçisi bu virusa yoluxub. Bu, İspaniyada qeydə alınan ümumi yoluxanların 14 faizindən çoxdur. İndiyədək virusa yoluxmuş 19 400 həkimdən 20 faizə yaxını sağalıb, böyük əksəriyyəti müalicələrini evdə davam etdirir. 13 tibb işçisi virusdan həyatını itirib.

Cənubi Koreyada koronavirusa yoluxma halları 10284 təşkil edir. Ölkədə yeni virusdan ölənlərin sayı daha 3 nəfər artaraq 186-ya çatıb.

Böyük Britaniyada sutka ərzində koronavirusdan ölən xəstələrin sayı 708 nəfər artaraq 4313 nəfərə çatıb. Yoluxma hallarının sayı təxminən 3,7 min artaraq 43 903 olub.

Meksikada son sutka ərzində COVID-19-a 2439 yeni yoluxma qeydə alınıb. Ölkədə ümumilikdə 20425 koronavirusa yoluxma aşkarlanıb. Koronavirus qurbanlarının ümumi sayı 125 nəfərə çatıb.

Braziliyada koronavirusdan ölənlərin sayı 553 nəfərə çatıb. Son bir sutkada xəstəlikdən daha 67 nəfər dünyasını dəyişib. Aprelin 6-da ölkədə koronavirusa 926 yoluxma halı qeydə alınıb və beləliklə, xəstələrin ümumi sayı 12 056 olub.

İsraildə son sutkada daha 395 nəfərdə koronavirus aşkarlanıb. Nəticədə ölkədə qeydə alınmış koronavirus faktlarının sayı 9006-ya çatıb. Bunlardan 56-sı ölüb, 683 nəfər isə sağalıb.

Son sutka ərzində Kanadada koronavirusa yoluxanların sayı 1,1 mindən çox artaraq 16,667 nəfər təşkil edib. Hazırda 336 mindən çox insan koronavirus üçün testdən keçib. Pandemiya başlayandan bəri 702 nəfər xəstəxanaya yerləşdirilib. Onlardan 204-ü reanimasiyaya yerləşdirilib, qalanları evdə müalicə olunur.

Türkiyədə aprelin 6-da daha 75 nəfər COVID-19 virusunun qurbanı olub. Ölkənin Səhiyyə naziri Fahrettin Koc bildirib ki, ölkədə pandemiyadan ölənlərin ümumi sayı 649 nəfərə çatıb. "Bu gün 21400 test keçirilib, 3148 yeni yoluxma aşkarlanıb. Yoluxanların ümumi sayı 30217 nəfərdir. Bu gün daha 284 pasiyent sağaldı, ümumi say 1326 nəfərdir", - deyə nazir özünün "Twitter"dəki səhifəsində yazıb.

Afrika qitəsində koronavirusa yoluxanların sayı 10 075 nəfərə çatıb. Son sutkada virusdan ölənlərin sayı 73 nəfər artaraq 487-yə çatıb.

Birləşmiş Ərəb Əmirliklərində (BƏƏ) yeni növ koronavirusa yoluxma hallarının ümumi sayı 1799-ə çatıb, 10 nəfər ölüb. Pandemiyanın başlamasından indiyədək 144 nəfər virusdan sağalıb.

İraqda koronavirusdan ölənlərin sayı 61 nəfərə çatıb. Hazırda virusa yoluxanların sayı 961 nəfərdir.

Özbəkistanda koronavirusa yoluxanların sayı 472-yə çatıb. Hazırda ölkədə 100 mindən çox insan karantindədir.

Yeni növ koronavirusun vətəni sayılan Çində isə infeksiyaya yoluxan vətəndaşların 94 faizi tamamilə sağalıb. Səhiyyə məsələləri üzrə Dövlət Komitəsinin xəbərinə görə, hazırda ölkədə koronavirusa yoluxan 1562 nəfər qalıb ki, bu da bütün vaxt ərzində baş verən yoluxma hallarının ümumi sayının iki faizini təşkil edir.

Son 24 saat ərzində Çinin materik hissəsində COVID-19-dan dünyasını dəyişən olmayıb. Bu, yanvar ayından bəri ilk dəfə qeydə alınıb. Lakin yeni növ koronavirusa yoluxanların sayı 32 nəfər artıb, bunların hamısı "gətirilmiş" hallardır. Gün ərzində xəstəxanalarda müalicə alan 89 nəfər sağalıb. Buna baxmayaraq, idxal olunan koronavirusa yoluxma halı 698-ə çatıb, 21 nəfərin vəziyyəti ağırdır.

Qeyd olunub ki, Çində virusa yoluxanların ümumi sayı 81740 nəfərə çatıb. Nəticədə 3 331 nəfər həyatını itirib.

Rusiyada son sutka ərzində 1154 nəfərdə koronavirus aşkarlanıb, daha 11 nəfər virusdan həyatını itirib. Bu günə qədər ölkədə ümumilikdə 7497 nəfər koronavirusa yoluxub, virusdan ölənlərin sayı 58 nəfərə çatıb. 494 nəfər sağalıb, 6945 nəfərin müalicəsi davam edir.

Ermənistan koronavirusa yoluxma sayına görə Cənubi Qafqazda ən yüksək göstəriciyə malikdir. Son sutka ərzində 20 nəfərdə yoluxma qeydə alınıb. Beləliklə, ölkədə koronavirusa yoluxanların sayı 853 olub. Bugünədək 8 nəfər koronavirusdan ölüb. 763 nəfərin müalicəsi davam edir.

Gürcüstanda daha 7 nəfərin koronavirusa yoluxduğu təsdiqlənib. Bununla da ölkədə xəstələrin sayı 195 nəfərə çatıb. Gürcüstanda koronavirusa yoluxmuş xəstələrin 39-u sağalıb, 2-si isə ölüb. Hazırda karantində 4735, stasionar nəzarətdə isə 383 nəfər saxlanılır.

## Azərbaycanda qabaqlayıcı tədbirlər görülür

Azərbaycanda koronavirusla bağlı vəziyyətin pisləşməməsi üçün hökumət tərəfindən hər cür imkanlar səfərbər edilib. Dövlətin bütün potensialı bu infeksiya ilə mübarizəyə yönəlib, lazımi tədbirlər həyata keçirilir. Qabaqlayıcı tədbirlərin görülməsi nəticəsində hazırda Azərbaycanda koronavirus xəstəliyinin yayılması geniş vüsət almayıb. Atılan bütün addımlar insanların həyatını, sağlamlığını qorumaq, bu xəstəliyin Azərbaycanda geniş vüsət almasına imkan verməmək məqsədi güdür.

İnfeksiyaya yoluxmanın sürətini azaltmaq, insanların bir-biri ilə yaxın əlaqələrini minimuma endirmək məqsədilə ölkə ərazisindəki xüsusi rejim dövrü martın 31-dən aprelin 20-dək gücləndirilib. Aprelin 5-dən isə həyata keçirilən xüsusi karantin rejimi çərçivəsində ölkədə müəyyən olunan hərəkət məhdudiyyətlərinin tətbiqinə başlanılıb.

İnsanların fərdi evlərindən və mənzillərindən çıxışına yalnız təxirəsalınmaz tibbi yardıma zərurət olduqda, həyat və sağlamlığa bilavasitə təhlükəli vəziyyət yarandıqda, fəaliyyətinə icazə verilən pərakəndə satış və əhaliyə xidmət göstərən obyektlərə gedildikdə, məişət tullantılarının atılması hallarında, eləcə də xüsusi rejim dövründə fəaliyyət göstərən təşkilatlarda xidməti vəzifələrini icra etmək məqsədilə icazə verilir.

Paytaxtda müvafiq icazə olmadan hərəkət edən şəxslər, eləcə də nəqliyyat vasitələrinin sürücüləri və sərnişinləri yoxlanılır. Müvafiq icazəsi olmayan şəxslər müəyyən olunaraq, barələrində qanunvericiliyə uyğun tədbirlər görülür. Bununla belə ölkə ərazisində elan edilən xüsusi karantin rejiminin pozulması hallarına hələ də rast gəlinməkdədir.

Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polisi İdarəsinin məlumatına görə, xüsusi karantin rejiminin pozulmasına görə 06.04.2020-ci il saat 00:00-dan 07.04.2020-ci il 08:00-dək olan müddət ərzində respublikanın avtomobil yollarında 861-i Bakı şəhərində olmaqla nəqliyyat vasitələri ilə hərəkətdə olan 1499 nəfər İnzibati Xətalar Məcəlləsinin 211-ci maddəsi ilə inzibati məsuliyyətə cəlb edilib. Ümumilikdə 01.04.2020-ci il tarixindən bu günədək respublikanın, o cümlədən paytaxtın avtomobil yollarında xüsusi karantin rejiminin pozulmasına görə 6945 hərəkət iştirakçısı inzibati məsuliyyətə cəlb edilib.

DİN Baş DYP İdarəsi bütün hərəkət iştirakçılarına zərurət olmadan və müvafiq qaydada icazə almadan yaşadıqları evlərdən, mənzillərdən çıxmamağı tövsiyə edir, hər bir vətəndaşı ölkəmizdə tətbiq edilmiş xüsusi karantin rejiminə düşünülmüş şəkildə yanaşmaqla tələb olunan qaydalara ciddi riayət etməyə çağırıb.

Qeyd edək ki, koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə tətbiq edilən xüsusi karantin rejiminin pozulmasına görə İnzibati Xətalar Məcəlləsinin 211-ci maddəsi ilə inzibati məsuliyyətə cəlb edilən hüquqi və fiziki şəxslərdən toplanan cərimələrin uçotunun aparılması üçün Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyində ayrıca xəzinə hesabı açılıb. Maliyyə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Mayis Piriyev bildirib ki, İnzibati Xətalar Məcəlləsinin 25.8-ci bəndinə və "2020-ci il dövlət büdcəsi haqqında" qanuna görə inzibati cərimələr büdcəyə ödənilir: "Karantin rejiminin pozulmasına görə tətbiq olunan cərimələr hesabına əlavə büdcə daxilolmalarının koronavirusla mübarizə tədbirlərinin maliyyələşdirilməsinə yönəldilməsi nəzərdə tutulur".

## Karantində 4500 vətəndaş var

Azərbaycanda koronavirus pandemiyasına qarşı həyata keçirilən tədbirlər çərçivəsində aprelin 5-dən 20-dək yükdaşımaları istisna olmaqla, Azərbaycan Respublikası ərazisinə yerüstü və hava nəqliyyatı yolu ilə giriş-çıxış, o cümlədən yerli hava uçuşları tam şəkildə dayandırılıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahın məlumatına görə, tətbiq olunan bu tədbir koronavirus xəstəliyinə daxili yoluxma hallarının operativ aşkarlanması, yoluxan şəxslərin izolyasiya edilməsi və onların təmaslarının müəyyən olunması və karantinə yerləşdirilməsi, karantin məntəqələrinin qəbuletmə imkanlarının tənzimlənməsi və ölkə ərazisində xəstəxanaların hazırlığının artırılması istiqamətində görülən işlərin daha da gücləndirilmiş şəkildə aparılmasına xidmət edir.

"Qlobal pandemiya və fövqəladə vəziyyət şəraitini nəzərə alaraq, xarici ölkələrdə olan Azərbaycan Respublikası vətəndaşlarını təmkin və anlayış nümayiş etdirməyə, olduqları ölkələrin karantin rejiminə ciddi şəkildə riayət etməyə, səfərlərdən çəkinməyə çağırır və xüsusi zəruri hallarda Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinə müraciət etməyi tövsiyə edirik", - deyə məlumatda bildirilib.

Prezident İlham Əliyev aprelin 6-da Sumqayıtda tibbi maska istehsalı müəssisəsinin açılışında çıxışı zamanı bildirib ki, xaricdə yaşayan və xaricdə olan Azərbaycan vətəndaşlarının ölkəmizə gətirilməsi istiqamətində atılan operativ addımlar nəticəsində böyük nailiyyətlər əldə edilib. Bu günə qədər 15 minə yaxın Azərbaycan vətəndaşı xarici ölkələrdən təxliyə edilib və onların böyük əksəriyyəti karantinə yerləşdirilib. Hazırda karantində qalan vətəndaşların sayı 4500-dür. Karantin üçün ən məqbul yerlər müəyyən edilib. Karantin rejimində olan ən çox insan məkanı Atletlər kəndidir. Orada hazırda təqribən 1300 insan yerləşdirilib. Karantində olan vətəndaşlar, eyni zamanda, Bakı şəhərində və bölgələrdə 4-5 ulduzlu hotellərdə, istirahət zonalarında, bəzi dövlət qurumlarının istirahət mərkəzlərində yerləşdirilir. Onlara gündəlik yemək verilir, onlar tibbi müayinədən keçirlər. Onların mütləq əksəriyyəti yaradılmış vəziyyətdən çox razıdırlar, dövlətə və həkimlərə minnətdarlıqlarını bildirirlər.

## Evdə qalın!

Azərbaycanda koronavirusla mübarizədə operativ və qabaqlayıcı tədbirlər görülür, vəziyyətə uyğun addımlar atılır. Ölkəmizdə həyata keçirilən bütün işlər, qəbul edilmiş qərarlar bir məqsəd güdür - vətəndaşları maksimum dərəcədə qorumaq və bu ağır sınaqdan az itkilərlə çıxmaq. Lakin xəstəliklə mübarizədə müsbət nəticələrə nail olmaq üçün təkcə dövlət tərəfindən görülən işlər kifayət deyil. Həyata keçirilən tədbirlər vətəndaşların qoyulan qaydalara ciddi riayət etməsi ilə müsbət nəticə verə bilər. Unutmayaq ki, hər məsuliyyətsizlik, hər qayda pozuntusu koronavirusa yoluxmaq və nəinki öz canını, ətrafdakıların da həyatını təhlükəyə atmaq deməkdir. Bu gün dünyanı təşvişə salan bu dəhşətli virusdan ən yaxşı qorunma yolu, mübarizə üsulu özünütəcriddir. Yalnız məsuliyyətli, vicdanlı olmaqla, gərəksiz yerə evdən çölə çıxmamaqla, özünütəcrid qaydalarına əməl etməklə bu xəstəliyin geniş yayılmasının qarşısını ala bilərik. Hər kəs özündə məsuliyyət hiss edib qəbul olunan qaydalara tam əməl etsə, xalqımız bu dövrdən az itkilərlə çıxa bilər.

Odur ki, zərurət olmadığı təqdirdə küçəyə çıxmayın. Evdə qalın - sağlam qalın!

*Xəyalə MURADLI,*
*"Azərbaycan"*

Qabaqlayıcı tədbirlər səmərə verir

# Koronavirusla mübarizə strategiyasında Azərbaycan modeli

## Dünyanı bürüyən pandemiya ölkəmizdə ciddi nəzarət altındadır

Əvvəli 1-ci səh.

Bu dəhşətli pandemiyanın Azərbaycanda bu cür arzuolunmaz fəsadlar yaratmaması, xəstəliyin ölkə ərazisində geniş yayılmaması üçün dövlətimiz tərəfindən ciddi tədbirlər görülür. Bu məqsədlə tətbiq edilən xüsusi karantin rejimi çərçivəsində artıq ölkədə hərəkət məhdudiyyətləri müəyyən olunub. Əhalinin həyat və sağlamlığının qorunmasını, dövlət qurumlarının və həyat təminatı obyektlərinin fasiləsiz işini, habelə yaranmış vəziyyətdə iqtisadi subyektlərin zəruri həddə fəaliyyətini təmin etmək məqsədilə 5 aprel 2020-ci il saat 00:00-dan 20 aprel 2020-ci il saat 00:00-dək ölkədə hərəkət məhdudiyyətləri həyata keçirilir.

O da həqiqətdir ki, virusun yayılmasının qarşısını almaqda ona yoluxan şəxslərin tez aşkarlanması da böyük rol oynayır. Bu istiqamətdə də Azərbaycanda əhəmiyyətli işlər görülür. Bunun üçün yeni, ən müasir standartlar səviyyəsində olan əlavə tibbi laboratoriyalar alınıb. Qeyd edək ki, ilkin dövrdə infeksiya faktları müəyyən olunanda Azərbaycan yalnız Ümumdünya Səhiyyə Təşkilatından (ÜST) məhdud şəkildə testlər alırdı və həmin dövrdə mövcud imkanlar çərçivəsində müayinələr aparılırdı. Sonrakı dövrdə isə ölkəmiz artıq özü kifayət qədər testlər almağa başladı. Əgər ilkin vaxtlar ölkədə gündə cəmi 200-300 test keçirilirdisə, indi müayinələrin sayı xeyli artıb. Son rəqəmlərə əsasən ölkədə 47 mindən artıq test həyata keçirilib.

İmkanların genişlənməsi yoluxma hallarını müəyyənləşdirməyi artırıb.

### İnkubasiya dövrü 28 günədək çəkə bilər...

O da diqqətə alınmalıdır ki, yoluxanların yalnız 20 faizində xəstəlik açıq şəkildə özünü büruzə verir. Çünki koronavirusun inkubasiya dövrü çoxdur və xəstəliyin üzə çıxması 28 günədək çəkə bilər. Xaricdən gələn və karantinə yerləşdirilən şəxslərlə bağlı bir neçə mərhələdə testlər keçirilir. Son bir həftə ərzində keçirilən testlərin analizi göstərir ki, xaricdən gələn çoxlu sayda insanda yoluxma halları müşahidə olunub. Həmçinin ilkin dövrdə infeksiya yalnız xaricdən gələn şəxslərdə aşkarlanırdısa, indi həm də ölkə daxilində insanların bir-birini yoluxdurması halları qeydə alınır.

Təəssüf ki, regionun və dünyanın təcrübəsi göstərir ki, infeksiyanın sürətlə yayılması və pik həddə doğru hərəkət etməsi bir çox obyektiv və subyektiv amillərlə bağlıdır. Hər bir ölkə və region üçün bu hal spesifikdir. Buna görə, yuxarıda da qeyd etdiyimiz kimi, insanların daxildə bir-birini yoluxdurma hallarının qarşısının alınması üçün hökumətimiz bütün lazımi tədbirləri görür, vətəndaşının sağlamlığı, təhlükəsizliyi, sosial təminatı üçün vacib qərarlar qəbul edir.

### Dünyanın diqqətindən yayınmayan effektiv mübarizə

COVID-19-a qarşı dövlətimiz tərəfindən aparılan effektiv mübarizə dünyanın da diqqətindən kənarda qalmayıb, təqdir olunur, nümunə göstərilir...

Bir neçə gün əvvəl ÜST-ün Baş direktoru Tedros Qebreyesusun Prezident İlham Əliyev və digər ölkələrin liderlərinə ünvanladığı səmimi məktubda yer alan təkliflərə nəzər yetirdikdə görünür ki, onların hamısı Azərbaycanda koronavirusla mübarizədə tətbiq olunur. Xüsusilə qeyd edilməlidir ki, ÜST-ün Baş direktoru COVID-19 pandemiyasının təsirinin və miqyasının məhdudlaşdırılması istiqamətində Azərbaycan Prezidentinin yürütdüyü siyasəti və atılan addımları təqdir edir. Eyni zamanda, məktubda T.Qebreyesus beynəlxalq ictimaiyyətə müraciət edərək bir sıra fundamental addımların həyata keçirilməsini xahiş edir. ÜST Baş direktorunun təklifləri dövlət qurumları arasında koordinasiyanın gücləndirilməsi, ictimai toplantıların dayandırılması, test, izolyasiya və karantinin həyata keçirilməsi üçün dövlət qurumlarının yeni şəraitə uyğunlaşdırılması, səhiyyə qurumlarının və ön sırada olan işçilərin müvafiq resurslarla təmin edilməsi, əhaliyə bu xəstəliyin ciddiliyinin izah olunması, əl gigiyenası, öskürək etiketi və sosial məsafənin vacibliyinin izah edilməsi, bütün şübhəlilərin təcrid edilməsi, pandemiyadan ən çox zərər çəkmiş insanlara iqtisadi yardımın göstərilməsi, dövlətlər arasında həmrəyliyin gücləndirilməsi, yoluxma halları və nəzarət tədbirləri barədə ÜST ilə operativ şəkildə informasiyanın paylaşılması kimi məsələlərdir.

### Azərbaycanda həyata keçirilən siyasət bir sıra ölkələr üçün nümunə ola bilər

Beləliklə, dünyada səhiyyə sahəsində ən böyük qurum hesab olunan ÜST-ün təklifləri bu günə qədər Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən tədbirlərin tərkib hissəsidir. Məktubda təklif edilən addımların artıq uzun müddətdir ki, Azərbaycanda tətbiq olunması bir daha koronavirusa qarşı ölkəmizdə aparılan mübarizənin düzgünlüyünü təsdiq edir. Bu mənada Azərbaycanda həyata keçirilən siyasət bir sıra ölkələr üçün nümunə ola bilər.

Azərbaycan infeksiyanın yayılmasına qarşı olduqca çevik reaksiya verib. Hələ fevral ayından Azərbaycanda ciddi karantin tədbirlərinə start verilib. Mart ayının əvvəllərindən bütün məktəblərdə tədris dayandırılıb, uşaq bağçaları bağlanılıb. O cümlədən respublikamızın qonşu ölkələrlə sərhədləri qapadılıb və xaricdən dönən vətəndaşların sağlamlığı ciddi şəkildə yoxlanılıb. Eləcə də aviareyslər dayandırılıb, ölkə daxilində vətəndaşların və insanların hərəkəti məhdudlaşdırılıb. Bu dövrdə müvafiq dövlət qurumlarının əməkdaşları və eləcə də KİV tərəfindən genişmiqyaslı maarifləndirmə işlərinin aparılmasının da böyük əhəmiyyəti olmuşdur. Hazırda Azərbaycanda əksər orqanlarda fəaliyyət internet üzərindən qurulur, iclaslar, toplantılar onlayn rejimdə keçirilir.

Göründüyü kimi, ÜST Baş direktorunun təklifləri Azərbaycanda xeyli müddətdir ki, tətbiq olunur. Bu cür izolyasiya tədbirlərinin, karantin rejiminin nəticəsidir ki, Azərbaycanda koronavirus infeksiyasının digər ölkələrdəki kimi faciəvi nəticələrə səbəb olmasının qarşısı alınıb.

### Biz birlikdə güclüyük

Virusa qalib gəlməyin məhz dövlət və vətəndaş həmrəyliyindən asılı olduğu dünyanın bir çox ölkələrində rast gəlinən acı həqiqətlərlə təsdiq olunan gerçəklikdir. Koronavirusa zamanında ciddi yanaşmayan ölkələrdə sonradan qoyulan qadağalar elə də effektiv olmadı və bu təsir gücünün işlək olmamasında vətəndaşların da həmin qaydalara uymamasının böyük rolu oldu. Təəssüf ki, nəticə insan faciələri ilə müşayiət olundu...

Amma ölkəmizdə bu cür faciələrin yaşanmaması üçün zamanında tədbirlər görüldü, qaydalar tətbiq olundu və bu tədbirlər davam etdirilir. Təsadüfi deyil ki, hazırda Azərbaycanın adı koronavirusun tüğyan etdiyi ölkələr siyahısında deyil...

Bəli, bu gün bütün Azərbaycan koronavirusla mübarizəyə atılıb, qlobal pandemiya ilə birgə savaşır. Səbirlə, anlayışla görülən tədbirlərə qoşularaq, hərə öz sahəsində gözəgörünməz düşmənlə döyüşə töhfə verməyə çalışır. Təbii ki, burada tibb işçiləri ön plandadır, amma tənha, yaşlı sakinlərimizə könüllü yardım edən gənclərimizin də, hansısa ucqar bölgələrdə öz vəsaiti hesabına tibbi maska tikib paylayan xeyirxah vətəndaşımızın da, evdə qalaraq virusun yayılmasına mane olan duyarlı insanımızın da payı var...

Və biz bu ölüm-dirim savaşında mütləq qalib gələcəyik...

Çünki biz birlikdə güclüyük!

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# İlham ƏLİYEV: «Bu istehsalat sahəsi xüsusi əhəmiyyət daşıyır»

Əvvəli 1-ci səh.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Sumqayıt Kimya Sənaye Parkında "Bakı Tekstil Fabriki" MMC tərəfindən yaradılan tibbi maska istehsalı müəssisəsinin açılışında iştirak etmişlər. Dövlət başçısı belə bir müəssisənin fəaliyyətə başlamasını çox mühüm hadisə adlandırmışdır. Bu da təsadüfi deyil. Çünki koronavirus pandemiyası ilə əlaqədar tələbat kəskin artdığından bütün ölkələrdə tibbi ləvazimat və qoruyucu vasitələrin, o cümlədən maskanın kəskin qıtlığı yaşanır. İstehsalçı ölkələr isə həm bu məhsulun, həm də istehsal avadanlığı və xammalın ixracını dayandırıblar.

Maskalardan istifadə koronavirusla mübarizədə xüsusi əhəmiyyət daşıyır. Odur ki, indi dünyanın bir çox ölkələrində bu sahədə problemlər yaşanır. Azərbaycanda da qıtlıq yaranmış, insanların tələbatına uyğun sayda tibbi maskalar tapmaq çətinləşmişdir. Yeni müəssisə isə özümüzü tibbi maskalarla təmin etməyə və koronavirusla mübarizə başa çatandan sonra da idxaldan asılı olmamağa imkan verəcək.

Müəssisə İSO beynəlxalq standartlarına uyğun xammaldan istifadə etməklə birinci mərhələdə hər gün 120 min tibbi maska buraxacaq. Maskalar qablaşdırıldıqdan sonra xüsusi avadanlıqla əlavə olaraq sterilləşdiriləcək. Yaxın günlərdə daha bir istehsal xətti qurulacaq. İkinci mərhələdə istehsal həcmi iki dəfə artırılaraq gündə 200-250 min tibbi maskaya çatdırılacaq.

Dövlət başçısı ölkəmizdə eyni zamanda dezinfeksiya vasitələri istehsalının da təşkil edildiyinin əhəmiyyətini vurğulamışdır: "Bu da qısa müddət ərzində ərsəyə gəlmiş bir məsələdir. Amma burada üstünlüyümüz ondan ibarət idi ki, ölkəmizdə bir neçə spirt zavodu var və bu spirt zavodlarında dezinfeksiya vasitələri istehsal edilməyə başlanmışdır və artıq satışa verilir. Beləliklə, mübarizəni daha da səmərəli şəkildə aparmaq üçün dəfələrlə qeyd olunub ki, vətəndaşlar daha da məsuliyyətli olmalıdırlar və şəxsi gigiyenasına fikir verməlidirlər. Ancaq bunu təmin etmək üçün vasitələr olmalıdır və bu gün bu vasitələr artıq bazara təqdim edilir - tibbi maskalar və dezinfeksiya vasitələri".

Prezident apteklərdə və digər ticarət yerlərində süni qiymət artımının olmamasını da tapşırmışdır. Qeyd etmişdir ki, maska qıtlığı artıq süni qiymət artımına da gətirib çıxarmışdır və bəzi hallarda maskaları altdan satırdılar. Bu hallara qətiyyən yol vermək olmaz və müvafiq dövlət qurumları çox ciddi nəzarət mexanizmi tətbiq etməlidirlər. Əgər süni qiymət artımı olarsa, bu işdə əli olan şəxslər ciddi cəzalandırılacaq. Çünki indiki pandemiya şəraitində belə addımlar xəyanət kimi qəbul ediləcək.

Tibbi maska və dezinfeksiya vasitələrinin istehsalının təşkili bir daha onu göstərir ki, Azərbaycanda yaradılmış infrastruktur qısa müddət ərzində yeni istehsalat sahələrinin işə düşməsinə imkan verir. Təsadüfi deyil ki, bu istehsal müəssisəsi Sumqayıtda yerləşən Kimya Sənaye Parkının ərazisində təşkil edilib. Bu park Prezidentimizin təşəbbüsü ilə yaradılıb və burada bir çox müəssisələr uğurla fəaliyyət göstərir, qeyri-neft sektorunun inkişafına böyük töhfə verir.

Qeyd edək ki, son bir ayda dövlət başçısı bir sıra yeni sosial və infrastruktur obyektlərinin açılışında iştirak edib. Bunlar Abşeron dairəvi dəmir yolunun Pirşağı-Goradil-Novxanı-Sumqayıt hissəsinin yenidənqurmadan sonrakı açılışı, Hövsan yaşayış kompleksinin, paytaxtdakı "Yeni klinika" tibb müəssisəsinin istifadəyə verilməsi və başqalarıdır.

Prezident Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrikində bildirmişdir ki, bu il sosial sahədə böyük işlərin görülməsi nəzərdə tutulur. İlin əvvəlindən dövlət başçısının iştirakı ilə bölgələrdə - Goranboy, Şəmkir və Qazax rayonlarında üç böyük xəstəxana açılmışdır. Bu il sosial infrastrukturun yaradılması istiqamətində bir sıra digər işlər də aparılacaq: "Baxmayaraq ki, dünya bazarlarında neftin qiyməti kəskin aşağı düşdü, bizim bütün sosial öhdəliklərimiz təmin ediləcək. Baxmayaraq ki, keçən il görülmüş tədbirlər və qəbul edilmiş qərarlar nəticəsində bizim sosial sahəyə nəzərdə tutulan büdcə xərclərimiz kifayət qədər artmışdır, ancaq bütün sosial öhdəliklər yerinə yetiriləcək və bütün sosial infrastruktur layihələri tam icra ediləcək".

Prezident İlham Əliyev bu layihələr sırasında Sumqayıt Kimya Sənaye Parkında yaradılan maska istehsalı müəssisəsinin əhəmiyyətini xüsusi vurğulamışdır. Burada səsləndirdiyi müraciətində dövlət başçısı demişdir: "Mən son illər ərzində yüzlərlə, bəlkə də mindən çox sənaye müəssisəsinin açılışında iştirak etmişəm, ancaq bu istehsalat sahəsi xüsusi əhəmiyyət daşıyır. Çünki bu gün Azərbaycanda istehsal olunan tibbi maskalar və dezinfeksiya vasitələri insanlarımızı qoruyacaq. Bizim də əsas məqsədimiz ondan ibarətdir ki, insanlar bu xəstəliyə yoluxmasın, insanların sağlamlığı təmin edilsin və buna nail olmaq üçün bütün tədbirlər görülür".

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Qondarma «seçkilər»ə beynəlxalq etiraz güclənir

## Dünya ictimaiyyəti separatçı rejimin bu addımını qətiyyətlə pisləyir

Bu gün dünya birliyi Ermənistanı işğalçı dövlət qismində qəbul etməsinə baxmayaraq, sözügedən ölkə hələ də Azərbaycan ərazilərindən öz silahlı qüvvələrini çıxarmağa tələsmir, burada yaratdığı separatçı rejimə hərtərəfli dəstəyini davam etdirir, hətta onun fəaliyyətinə hüquqi don geyindirməyə çalışır. Elə martın 31-də qanlı işğal nəticəsində Dağlıq Qarabağda yaradılmış separatçı rejimin keçirdiyi "prezident və parlament seçkiləri" də bu qəbildən olan növbəti cəhddən başqa bir şey deyil.

Bununla bağlı müxtəlif beynəlxalq qurumlar tərəfindən çoxsaylı qərarlar, qətnamələr, eləcə də digər sənədlər qəbul edilib. Amma Ermənistan hələ də beynəlxalq hüquqa hörmətsizlik nümayiş etdirərək həmin sənədlərdə qoyulan tələbi yerinə yetirməkdən imtina edir.

Ermənilər zəbt olunmuş ərazilərdə bundan əvvəl də analoji "seçki şouları" təşkil etmişdilər. Lakin bunun adi "seçki tamaşası"ndan başqa bir şey olmadığına sonda özləri də şahid olmuşdular. Bu dəfə də vəziyyət istisnalıq təşkil etmir. Əksinə, analoji hallar Ermənistanın işğalçı siyasətinin ifşa edilməsinə təkan verən məqamlardan biri kimi çıxış edir.

Bu məsələyə Azərbaycan tərəfindən də kifayət qədər sərt reaksiya verilib. Baş nazirin müavini, Yeni Azərbaycan Partiyası (YAP) sədrinin müavini - icra katibi Əli Əhmədov "Facebook" səhifəsində bildirib ki, separatçı rejimin mart ayının sonunda keçirdiyi qondarma "seçkilər"in urvatsızlığının digər səbəbi isə dünyanın başının koronavirus pandemiyasına qarşı mübarizəyə qarışması ilə əlaqədardır: "Əvvəllər bəzi dövlətlər Dağlıq Qarabağda keçirilən qondarma "seçkilər"i tanımadığını mütləq bəyan edər, neqativ formada olsa da ona münasibət bildirərdi. İndi isə həmin dövlətlər Dağlıq Qarabağ separatçılarının növbəti "seçkilər"inə belə bir "diqqəti" də ayırmağı özlərinə rəva bilmədilər. Bir sözlə, bu "seçkilər" separatçıların əvvəllər keçirdiyi seçkilərin hamısından daha böyük rüsvayçılıqla başa çatdı".

İşğal edilmiş ərazilərdə keçirilən son qanunsuz "seçkilər"in dünya miqyasında növbəti dəfə sərt şəkildə tənqid obyektinə çevrilməsi də bunu təsdiq edir. Qardaş Türkiyə ilk olaraq bununla bağlı sərt mövqe nümayiş etdirib. Türkiyənin Xarici İşlər Nazirliyinin Dağlıq Qarabağ separatçılarının keçirməyə hazırlaşdığı "prezident və parlament seçkiləri"ni pisləyən sərt açıqlamasında rəsmi Ankaranın bu "seçki"ni tanımadığı bildirilir: "Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli məqsədilə ATƏT-in Minsk qrupunun fəaliyyəti çərçivəsindəki görüşlərin keçirildiyi bir dövrdə işğal altındakı torpaqlarda saxta "seçkilər" təşkil olunması sülh yolu ilə uzunmüddətli həllə yönəldilən cəhdlərə zərbə vuran bir təhrikdir. ATƏT-in Minsk qrupu daxil olmaqla beynəlxalq ictimaiyyəti bu "seçkilər"i tanımamağa çağırırıq. Türkiyə Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə qarşı yeni bir pozuntu təşkil edən bu qanunsuz "seçkilər"i tanımır. Türkiyə ATƏT-in Minsk qrupunun üzvü olaraq Dağlıq Qarabağ münaqişəsinə ədalətli və uzunmüddətli həll axtarılması cəhdlərini dəstəkləməkdə davam edəcək".

"Seçkilər"i pisləyən bəyanatlardan biri də Avropa İttifaqının (Aİ) Xarici Siyasət Xidmətindən gəldi. Qeyd olunur ki, Avropa İttifaqı Dağlıq Qarabağda keçirilən qondarma "prezident və parlament seçkiləri"ni tanımır: "2020-ci il martın 31-də Dağlıq Qarabağda qondarma "prezident və parlament seçkiləri" ilə əlaqədar olaraq Avropa İttifaqı bir daha xatırladır ki, blok bu seçkinin baş tutduğu hüquqi bazanı və konstitusiyanı tanımır. Bu hadisə Dağlıq Qarabağın gələcək statusunun müəyyənləşdirilməsinə və ya davam edən danışıqlar prosesinin nəticəsinə xələl gətirə bilməz. Aİ ATƏT-in Minsk qrupunu və xüsusən həmsədrlərin "status-kvo"nun xaricində irəliləyiş, hərtərəfli və davamlı sülh yolunda əsaslı danışıqlar aparmaq səylərini qətiyyətlə dəstəkləyir. Aİ Dağlıq Qarabağ münaqişəsinin erkən, sülh yolu ilə həllinə yönəlmiş səyləri bundan sonra da dəstəkləməyə hazırdır".

NATO-nun baş katibinin Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Ceyms Appaturay da rəsmi "Facebook" səhifəsində martın 31-də Azərbaycanın işğal olunmuş ərazilərində keçirilmiş qondarma "seçkilər"lə bağlı məlumat yayıb. Bildirilib ki, NATO qondarma "seçkilər"i tanımır.

ATƏT-in Minsk qrupunun həmsədrləri İqor Popov (Rusiya), Stefan Viskonti (Fransa) və Endrü Şofer (ABŞ) martın 31-də Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsində keçirilən qondarma seçkilərlə bağlı bəyanat yayıblar. Həmsədrlər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin hərtərəfli həlli kontekstində onların 9 mart tarixli bəyanatında əksini tapmış prinsip və elementlərə uyğun olaraq, regionun gələcəyinin həllində bölgə əhalisinin rolunu tanıdıqlarını bəyan ediblər.

İslam Əməkdaşlıq Təşkilatı (İƏT) da Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsində keçirilən qondarma "seçkilər"i tanımır. Təşkilatın yaydığı bəyanatda bildirilir ki, İslam Əməkdaşlıq Təşkilatının Baş Katibliyi martın 31-də Azərbaycan Respublikasının işğal edilmiş Dağlıq Qarabağ bölgəsində seçkilərin keçirilməsini BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsi ilə bağlı müvafiq qətnamələrinə zidd hesab edir.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (Türk Şurası) da yaydığı bəyanatda Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ regionunda qondarma "prezident və parlament seçkiləri"ni pisləyir.

Qoşulmama Hərəkatının üzv ölkələri də martın 31-də Azərbaycanın Dağlıq Qarabağ bölgəsində keçirilmiş qondarma "seçkilər"i tanımadıqlarını və qanunsuz hesab etdiklərini bildiriblər.

Böyük Britaniya, Ukrayna, Gürcüstan, Rumıniya və bir çox dövlətlər də Azərbaycanın işğal edilmiş ərazilərində keçirilmiş qondarma "seçkilər"i tanımır. Bəyanatlarda qeyd edilib ki, Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş Dağlıq Qarabağ bölgəsində martın 31-də keçirilən qondarma "prezident və parlament seçkiləri" qanunsuz hesab edilir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Beynəlxalq aləm

## Yaponiyada fövqəladə vəziyyət elan olundu

Yaponiyanın Baş Naziri Sindzo Abe koronavirusun yayılması ilə əlaqədar paytaxt Tokioda və altı prefekturada - Osaka, Fukyok, Tiba, Kanaqava, Saytama və Hyöqoda fövqəladə vəziyyət rejimi tətbiq etmişdir. O, müvafiq bəyanatla epidemiya ilə mübarizə üzrə fövqəladə hökumət qərargahının iclasında çıxış etmişdir.

Sözügedən rayonların ərazisində təxminən 55 milyon nəfər yaşayır. Rejim bir ay - gələn ayın 6-dək davam edəcək. Abe qeyd etmişdir ki, fövqəladə vəziyyət şəraitində, Avropada olduğu kimi, bütün müəssisə və idarələr bağlanmayacaq. Rejim yalnız Tokio qubernatoruna və digər altı prefekturanın başçılarına sosial məsafəyə riayət etmək üçün əlavə tədbirlər görməyə imkan verəcək. Bütün bu addımlar tövsiyə xarakteri daşıyacaq və qaydaların pozulmasına görə cərimələrlə müşayiət olunmayacaq.

## Slovak jurnalistinin qatili 23 il iş aldı



Slovakiyada Pezinok Şəhər Məhkəməsi keçmiş hərbi qulluqçu Miroslav Marçeki jurnalist Yan Kutsiyakın ölümündə təqsirli bilərək 23 müddətinə azadlıqdan məhrum etmişdir. Məhkəmə Marçekin etiraf ifadələrini və istintaqla əməkdaşlığını nəzərə almışdır.

İttiham tərəfi Marçek üçün 25 illik həbs cəzası tələb etmiş və məhkəmənin qərarından şikayət vermişdir. Sabiq hərbçi üç şübhəli şəxslə birgə 2018-ci ilin sentyabrında həbs olunmuş, bir neçə aydan sonra isə jurnalisti öldürdüyünü etiraf etmişdir.

27 yaşlı jurnalist Yan Kutsiyak və onun sevgilisi Martina Kuşnirova 2018-ci ilin fevralında yaşadıqları evin qabağında güllələnmişlər. Kutsiyak Slovakiyanın Baş Naziri Robert Fitsonun yaxın adamlarının italyan sahibkarları ilə şübhəli əlaqələrini aşkarlamaq üçün jurnalist araşdırması aparırdı. Məqalə onun ölümündən sonra çap olunmuşdur.

Jurnalistin qətli ölkədə geniş əks-səda doğurmuşdur. Nəticədə hökumətin başçısı, Daxili İşlər və Mədəniyyət nazirləri, həmçinin bir neçə yüksək vəzifəli məmur istefaya getmişlər.

## Türkiyə ordusu Suriyanın şimalında 9 terrorçunu məhv etdi

Türkiyə Silahlı Qüvvələri Suriyanın şimalında PKK terrorçu təşkilatının yerli filialının - YPG-nin 9 silahlısını zərərsizləşdirmişdir. Bu barədə Türkiyə Milli Müdafiə Nazirliyi məlumat vermişdir. Məlumatda deyilir ki, bir terrorçu "Fərat qalxanı" əməliyyat zonasını atəşə tutarkən məhv edilmiş, 8 silahlı isə "Sülh bulağı" əməliyyat zonasına soxulmağa cəhd edərkən zərərsizləşdirilmişdir.

Son illər PKK regionda törətdiyi qanlı cinayətlərə görə məsuliyyəti uzantılarının üzərinə qoymağa çalışır. PKK terrorçuları Suriyada PYD və YPG adları ilə pərdələnir, son iki ildə isə özlərini "Suriya demokratik qüvvələri" adlandırırlar. İranda PKK "Kürdüstan azad həyat partiyası" (PJAK) kimi fəaliyyət göstərir.

# Azərenerji "Biz sizin üçün işləyirik. Siz bizim üçün evdə qalın!" videoçarxı yaydı

İlin 365 günü 24 saat növbəli iş prinsipi ilə fəaliyyət göstərən və bir saniyə də olsun elektrik enerjisinin istehsalını, o cümlədən ötürülməsini dayandırmayan "Azərenerji" ASC koronavirus epidemiyası olmağına baxmayaraq fasiləsiz olaraq işini davam etdirir.

"Azərenerji" ASC tabeliyindəki müəssisələrdə virusun yayılmasının qarşısının alınması ilə bağlı təxirəsalınmaz tədbirlər, dezinfeksiya işlərini həyata keçirməklə yanaşı #evdəqal aksiyasına dəstək verərək növbəti videoçarx yayımlayıb.

Videoçarxda əməkdaşların fasiləsiz olaraq növbəli iş prinsipi ilə çalışması fonunda əhaliyə "Biz sizin üçün işləyirik, siz bizim üçün evdə qalın!" müraciəti edilir.


## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi" publik hüquqi şəxsi (DOST Agentliyi) beynəlxalq və ölkə səviyyəli tədbirlərdə, bayramlarda, mükafatlandırma eləcə də yubiley mərasimlərində təbrik və xatirə məqsədilə verilməsi nəzərdə tutulan hədiyyələrin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir.

Kotirovka sorğusunda iştirak etmək üçün qiymət təklifi (nəqliyyat, sığorta, vergi, gömrük rüsumları və digər xərclər nəzərə alınmaqla) və digər zəruri sənədlər 13 aprel 2020-ci il saat 12:00-dək Bakı şəhəri, İ.Qutqaşınlı küçəs,i 86 ünvanında yerləşən ofisinə təqdim edilməlidir (telefon: 012-525-50-26). Zərflər 13 aprel 2020-ci il saat 15:00-da həmin ünvanda açılacaqdır.

Maraqlananlar müvafiq məlumatları DOST Agentliyinin Bakı şəhəri, İ.Qutqaşınlı küçəsi, 86 ünvanında yerləşən ofisindən yazılı müraciət etməklə əldə edə bilərlər.

***Tender komissiyası***

